Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin orqanı

29 iyul 2022-ci il
№29 (8987)

www.muallim.edu.az
muallim@edu.gov.az



# Təhsildə yeni hədəflər

Ölkəmizin növbəti illərdə əsas hədəflərini göstərən yeni sənəd təsdiq edilib. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" adlanan həmin sənəddə təhsilin məqsədi müəyyənləşdirilib, qarşısında duran hədəflər öz əksini tapıb. Həftənin gündəmində əsas yer tutan bu məsələ ilə bağlı təhsil naziri Emin Əmrullayev brifinq keçirib. Brifinqdə təhsildə baş verən vacib hadisələrə də toxunulub.

"Yeni strategiya ölkəmizin növbəti illərdə inkişafının əsas prioritetlərini müəyyənləşdirən sənəddir". Təhsil naziri Strategiyanı qiymətləndirərkən belə deyib.

"Azərbaycan-2030: Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" məqsədinə gedən yolu müəyyənləşdirən sənədin 3.3.bəndində "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə" müəyyən edilib. Təhsillə bağlı ölkəmizin öncəlikləri "Milli Prioritet 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" başlığı altında təsvir olunub."XXI əsrin tələblərinə uyğun təhsil" növbəti dövr üçün təhsilin məqsədi olaraq müəyyən edilib. Burada qarşıdakı 5 ildə təhsildə başlıca hədəflər əksini tapıb.

⇨Ardı səh.3

**Yeni strategiya ölkəmizin növbəti illərdə inkişafının əsas prioritetlərini müəyyən edir**

## BU SAYIMIZDA

### Tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən səhiyyənin və xüsusilə də ali tibb təhsilin inkişafına xüsusi əhəmiyyət verilməsi, yüksək qayğı və diqqət göstərilməsi, yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm yer verilməsi sayəsində böyük uğurlar qazanılmaqdadır. Bu müddətdə, Naxçıvan Dövlət Universitetində də ardıcıl və hərtərəfli dövlət qayğısı sayəsində təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir.

səh.5

### "MİSSİYA"




Təcrübəli müəllim olmaqla bərabər, həm də bugünkü Azərbaycan dilçilik məktəbinin məhsuldar nümayəndələrindən biri olan filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın Ümummilli Liderimizin çoxşaxəli fəaliyyətində konkret bir sahəni - böyük dövlət adamının Azərbaycan dilinin qorunması və inkişafı, ədəbiyyat və incəsənətə, elə həmin kontekstdən, ədəbiyyat və incəsənət xadimlərinə diqqət və qayğısı, gəncliyin hərtərəfli şəxsiyyət kimi formalaşması işində mühüm yerlərdən birini tutan təhsilə strateji məsələ kimi baxmasını şərtləndirən amilləri araşdırmaya cəlb etməsi başadüşüləndir.

səh.6

### Dünya dəyişirsə, məktəblər də dəyişməlidir



"Yeni çağırışlar"da növbəti qonaq dünya şöhrətli professor Fernando Reimers olub. Harvard Universitetinin professoru, Qlobal Təhsil İnnovasiyaları Təşəbbüsünün direktoru Fernando Reimers sülh içərisində yaşayaraq dünya vətəndaşı olmaq çağırışı ilə çıxış edib. Belə ki, Təhsil Nazirliyinin dəstəyi və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən "Yeni çağırışlar" proqramının 25 iyul 2022-ci il tarixində yayımlanan bölümündə Fernando Reimers ilə qlobal təhsil və yeni səriştələr barədə danışılıb.

səh.8



## Gəncə-Daşkəsən regionunda sertifikatlaşdırmaya dair görüşlər keçirilib

Gəncə şəhəri və Samux rayonunda direktor, direktor müavinləri və ibtidai sinif müəllimləri ilə sertifikatlaşdırma prosesinə dair məlumatverici görüş keçirilib. Görüşdə 300-dən çox ibtidai sinif müəllimi iştirak edib.

Samux rayon təhsil sektorunun müdiri Nurlana Həsənova sertifikatlaşdırma prosesi barədə danışıb və təhsilverənlərə uğurlar arzulayıb.

Görüşdə Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin əməkdaşı Tükəzban Quliyeva təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı təqdimatla çıxış edib, Təhsil Nazirliyi və Təhsil İnstitutunun bu istiqamətdə gördüyü dəstək tədbirlərini qeyd edib, sertifikatlaşdırmanın təkcə qiymətləndirmə deyil, həmçinin təhsilverənlər üçün peşəkar inkişaf aləti olduğunu vurğulayıb.

Təhsil İnstitutunun ibtidai təhsil üzrə təlimçisi Vəfa Məmmədova sertifikatlaşdırmanın məzmunu ilə bağlı məsələlər barədə fikirlərini bölüşüb, metodika üzrə nümunə test tapşırıqlarını izah edib.

Tədbirdə görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra — Nazirlik) adlandırılsın.

**2.** Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Nazirliyə həvalə edilsin.

**3.** Nazirliyin yanında aşağıdakı Agentliklər yaradılsın:

3.1. Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi;

3.2. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi.

**4.** Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının siyahısı təsdiq edilsin (əlavə edilir).

**5.** Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev Muzeyi əmlakları ilə birlikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyinə verilsin.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. üç ay müddətində:

6.1.1. Nazirliyin yeni əsasnaməsinin və strukturunun, habelə bu Fərmanın 3.1-ci və 3.2-ci bəndləri ilə yaradılan Agentliklərin əsasnamələrinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.1.2. bu Fərmanın 1—5-ci hissələri nəzərə alınmaqla, elm və təhsil sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.1.3. Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.2. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Nazirliyin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının balansında olan dövlət əmlakının Nazirliyin balansına verilməsi ilə bağlı tədbirlər görsün;

6.3. bu Fərmanın 4-cü və 5-ci hissələri nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturunu və işçilərinin say həddini üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndləri, 4-cü və 5-ci hissələri nəzərə alınmaqla zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

6.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Nazirlik:

7.1. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq tabeliyinə verilən qurumların sayının optimallaşdırılması və fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

7.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**8.** Azərbaycan Milli Elmlər Akademiyası:

8.1. bu Fərmanın 2-ci, 4-cü və 5-ci hissələri nəzərə alınmaqla, Ümumi Yığıncağında qəbul edilmiş yeni Nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**9.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 iyul 2022-ci il*



*Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının SİYAHISI

**1.** Azərbaycan Milli Elmlər Akademiyasının büdcədən maliyyələşdirilən elmi müəssisələri:

1.1. Fizika İnstitutu;

1.2. Riyaziyyat və Mexanika İnstitutu;

1.3. İdarəetmə Sistemləri İnstitutu;

1.4. Radiasiya Problemləri İnstitutu;

1.5. İnformasiya Texnologiyaları İnstitutu;

1.6. Biofizika İnstitutu;

1.7. Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası;

1.8. Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu;

1.9. Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu;

1.10. Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu;

1.11. Polimer Materialları İnstitutu;

1.12. Geologiya və Geofizika İnstitutu;

1.13. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu;

1.14. Təbiət Tarixi Muzeyi;

1.15. Neft və Qaz İnstitutu;

1.16. Botanika İnstitutu;

1.17. Zoologiya İnstitutu;

1.18. Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu;

1.19. Mikrobiologiya İnstitutu;

1.20. Dendrologiya İnstitutu;

1.21. Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu;

1.22. Genetik Ehtiyatlar İnstitutu;

1.23. Torpaqşünaslıq və Aqrokimya İnstitutu;

1.24. İqtisadiyyat İnstitutu.

**2.** Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin tabeliyində olan elmi müəssisələr:

2.1. Təbii Ehtiyatlar İnstitutu;

2.2. Bioresurslar İnstitutu;

2.3. Batabat Astrofizika Rəsədxanası.

**3.** Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin tabeliyində olan elmi müəssisələr:

3.1. Ekologiya və Təbii Ehtiyatlar İnstitutu;

3.2. Bioresurslar İnstitutu;

3.3. Aqrar Problemlər İnstitutu;

3.4. Nəbatat Bağı.

**4.** Azərbaycan Milli Elmlər Akademiyasının təsərrüfat-hesablı elmi xidmət müəssisələri:

4.1. Təcrübə-Sənaye Zavodu;

4.2. "Kibernetika" Elmi İstehsalat Birliyi;

4.3. "Nafta" Elmi İstehsalat Birliyi;

4.4. "Aşqar" Elmi İstehsalat Birliyi;

4.5. "Kompozit" Elmi İstehsalat Birliyi.

**5.** Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində "AMEA Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti.

# Təhsildə yeni hədəflər



## Yeni strategiya ölkəmizin növbəti illərdə inkişafının əsas prioritetlərini müəyyən edir

⇦ Əvvəli səh.1

Təhsil naziri sənədlə qarşıya qoyulan 2 böyük hədəfdən danışıb. Birinci hədəf beynəlxalq qiymətləndirmələrdə Azərbaycanın topladığı baldır. Hazırda 402 bal təşkil edən bu nəticəni 2028-ci ildə 422 bala qaldırmaq hədəflənib. Ali təhsil müəssisələrimizdən heç olmasa 2 universitetin dünyanın ən yaxşı 8 universiteti sırasına daxil olması növbəti illərin planları siyahısında başdadır.

Sənəddə 7 istiqamət üzrə fəaliyyət istiqamətləri və hədəflər müəyyənləşdirilib.Təhsil naziri məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili, ali təhsildə əlçatanlığın və keyfiyyətin artırılması, elmi tədqiqatların və innovasiyaların inkişafı, "ömürboyu təhsil" sisteminin gücləndirilməsi, rəqəmsal səriştələrin artırılmasından ibarət bu istiqamətlərin hər biri ilə bağlı geniş məlumat verib.

### Məktəbəqədər təhsil əlavə 100 min uşağı əhatə edəcək

"Hazırda 1-5 yaşında olan azyaşlıların 32 faizi məktəbəqədər təhsilə cəlb edilib. Növbəti 5 il ərzində bu rəqəmin 50 faizə çatdırılması planlaşdırılır. Bu da o deməkdir ki, dövrün sonuna əlavə 100 min uşağın bu təhsilə cəlbi üçün şərait yaradılacaq", - deyən təhsil naziri bu hədəfə necə nail olacağımızdan da danışıb. Onun sözlərinə görə, bu müddət ərzində məktəbəqədər təhsildə də işçi heyətinin təlimləndirilməsi və sertifikatlaşdırılması nəzərdə tutulub. Bütün bölgələrdə mövcud olan, hazırda 777 müəllim tərəfindən 800 qrupda təhsil alan 17 min uşağı əhatə edən icma əsaslı məktəbəqədər təhsil müəssisələri inkişaf etdiriləcək.

E.Əmrullayev valideyn-dövlət-özəl əməkdaşlığını əhatə edən yeni modeldən də bəhs edib. Bu əməkdaşlığın gücləndiriləcəyini, məktəbəqədər təhsildə keyfiyyət təminatı sistemi yaradılacağını deyib.

### Ümumi təhsilin keyfiyyəti yüksəldiləcək

STEAM əsaslı yeni təhsil proqramlarının milli proqrama inteqrasiya olunması məqsədilə ümumi təhsildə səriştə əsaslı təhsil proqramlarının hazırlanması və tətbiqi nəzərdə tutulub. Həmçinin məzmun islahatlarının əsas istiqaməti kimi, 2022-2026-cı illərdə STEAM əsaslı tədrisin əhatə dairəsi genişləndiriləcək. Hazırda 90 min nəfərdən çox şagirdin qoşulduğu STEAM siniflərini də artırmaq hədəflənib.Strategiyanın nəzərdə tutduğu dövrün sonuna qədər 10 min sinfin, 280 min nəfər şagirdin STEAM əsaslı tədrisə cəlb edilməsi planlaşdırılıb. Nəticədə hər 5 şagirddən biri elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ tədrisini təmin edən bu metodla təhsil alacaq.

Təhsil nazirinin sözlərinə görə, ilin sonuna 137 min təhsilverənin sertifikasiyası və 68 min heyətin differensial əməkhaqqı sisteminə cəlb olunacağı planlaşdırılıb.Sertifikasiyada ən yaxşı nəticə göstərən müəllimlərin maaşlarına əlavələr ediləcək: "Odur ki, sertifikasiya yalnız müəllimlərin hazırlıq səviyyəsinin təminat aləti deyil, eyni zamanda onların işinin rəğbətləndirilməsidir".

Ümumi təhsildə həm də təmayüllərin, peşə təmayüllü siniflərin,inklüziv təhsilin əhatə dairəsinin genişləndirilməsi və infrastrukturun müasirləşdirilməsi nəzərdə tutulub. Maddi-texniki bazası yenilənən məktəblərin sayının 2026-cı ilə kimi 86 faizə çatdırılması hədəflənib.



### Əmək bazarının tələblərinə cavab verən peşə təhsili

E.Əmrullayev diqqətə çatdırıb ki, hazırda peşə təhsili müəssisələrinə 15-16 min tələbə qəbul olunur. Növbəti 4 ildə peşə təhsilinə qəbul olan tələbələrin sayının əlavə 11 min nəfər artırılması nəzərdə tutulub: "Yüksək texniki peşə təhsili olan tələbələrin sayının isə 10 minə çatdırılması planlaşdırılır. 15 min nəfərin qısamüddətli ixtisasartımına cəlb olunması nəzərdə tutulur".

### Ali təhsil üçün 4 hədəf

Ali təhsildə əlçatanlığın və keyfiyyətin artırılması, beynəlxalq rəqabətliliyin təmin edilməsi istiqamətində dövrün sonuna qədər nail olunacaq vacib 4 hədəf əksini tapıb. İlk növbədə ölkəmizdə ali təhsillilərin sayının artırılmasına xidmət edən addımlar atılacaq. Bu il ali təhsil müəssisələrinə 50 min bakalavr, 10 minə yaxın magistrin qəbulunu gözlədiklərini vurğulayan təhsil nazirinin fikrincə, qarşıdakı 4 ildə bu rəqəmin ümumilikdə 75 minə qaldırılacağı planlaşdırılıb.

Bəs, bu, hansı yolla ediləcək? Nazir bildirib ki, bu istiqamətdə son bir neçə ildə xeyli iş görülüb. Orta ixtisas təhsili müəssisələrindən qəbul, ali təhsil müəssisələrinin infrastrukturunun genişləndirilməsi, yeni ali təhsil müəssisələrinin yaradılması ilə artıq bu prosesə start verilib. Bu istiqamətdə bir neçə amil mühüm rol oynayacaq: "İlk növbədə regional universitetlərimiz əhəmiyyətli rol oynamalıdır. Hazırda Mingəçevirdə, Lənkəranda, Gəncədə fəaliyyət göstərən universitetlərimizin tələbə sayında artım var. Eyni zamanda, həmin universitetlərdə ciddi infrastruktur layihələri icra olunacaq. Xüsusən, bu yaxınlarda Mingəçevir Dövlət Universiteti üçün 10 min nəfərlik müasir kampusun tikintisinə başlanacaq. Sadəcə bu bir yer Mingəçevirdə təhsil alan şagirdlərin sayından 3-4 dəfə çox tutuma malikdir: "Hazırkı demoqragiyaya görə, növbəti illərdə ümumi təhsil müəssisələrindən məzunların sayı artacaq. Biz onların təhsil alması üçün şərait yaratmalıyıq. Bu imkan da mövcud universitetlərin genişlənməsi hesabına reallaşacaq".

Ali təhsil müəssisələrində tələbə sayını artırmağın üçüncü yolu olaraq hibrid modelin uğuruna inanan təhsil naziri pandemiya dövründə özünü doğruldan bu metodun qarşıdakı illərdə də mövcud imkanları artırmaqda istifadə ediləbiləcəyini vurğulayıb.

Növbəti illərdə ali təhsil müəssisələrində pedaqoji ixtisaslar üzrə kadr hazırlığına da toxunan E.Əmrullayev balansın qorunacağını deyib: "Bu gün təxminən 10 mindən artıq insan pedaqoji sayılan ixtisaslara daxil olur. Hər il tək ümumtəhsil müəssisələri üçün 7-8 min vakansiya veririk. Hesab edirəm ki, bununla bağlı balans qorunur və gələcəkdə bu tendensiyanı qorumağa çalışacağıq".

Nazir müəllim hazırlığı və kadrların yerləşdirilməsində problem kimi görünən məqama da diqqət çəkib: "Biz bütün ölkə üçün müəllim hazırlayırıq. Çünki ən kiçik kəndimizdə belə müəllim lazımdır. Müəllimlərimiz isə, adətən öz evinə yaxın məktəbdə işləmək istəyirlər. Bu da kənardan sanki ölkədə müəllim çoxdur kimi görünür. Hazırladığımız müəllim sayı vakansiyalardan çox olur, çünki hamı müəllim olmaq istəmir. Ona görə də bundan sonra da müvafiq tələbə uyğun müəllim hazırlanacaq".

Strategiyaya əsasən, 2022-2026-cı illər ərzində beynəlxalq ikili diplom proqramlarının əhatə dairəsi genişləndiriləcək, dövrün sonunadək 4 əlavə ikili diplom proqramının icrasına başlanılacaq. Bu dövr ərzində elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılacağını, elmi tədqiqatların artırılacağını və qlobal elmi məkana inteqrasiya olunacağını vurğulayan Emin Əmrullayev həmçinin iki ali təhsil müəssisəsinin elmi-tədqiqat universitetinə çevriləcəyini də deyib.

Strategiya çərçivəsində yeni məzmunlu proqramların əhatə dairəsi və keyfiyyəti artırılacaq. Belə proqramlardan biri - "SABAH" qruplarının fəaliyyəti dövründə özünü doğrultduğunu vurğulayan təhsil naziri hazırda həmin qruplarda 3000 tələbənin təhsil aldığını, amma qarşıdakı illərdə bu sayın 5 dəfə artırılaraq 15 min nəfərə çatdırılacağını da qeyd edib.

Növbəti illərdə sosial və standart təhsil tələbə kreditlərinin tətbiqi də genişləndiriləcək. Ötən tədris ilinin ortasından tətbiq edilən təhsil tələbə kreditlərindən bu il 10 min, gələcək illərdə isə 25 min nəfərədək tələbənin yararlana biləcəyi gözlənilir.

E.Əmrullayev elmi tədqiqatların və innovasiyaların inkişafını, elm və təhsilin inteqrasiyasını nəzərdə tutan V istiqamət üzrə fəaliyyətə də aydınlıq gətirib. Bu istiqamətdə görüləcək işlərin nəticəsi qabaqcıl elmi-tədqiqat nəşrlərində aktiv iştirak edən 2 elmi-tədqiqat institutunun fəaliyyəti olacaq. Beynəlxalq impakt faktorlu jurnallarda çap olunan məqalə sayını 40 faiz artırmaq, elmi tədqiqatlara və inkişaf layihələrinə ayrılan xərcləri çoxaltmaq və elm xərclərinin ÜDM-də xüsusi çəkisinin müsbət dinamikasına nail olmaq növbəti dövr üçün təhsildə əsas hədəflər olacaq.

### Güclü "ömürboyu təhsil" sisteminə aparan yolda 3 hədəf

Səriştələrin davamlı inkişafına əsaslanan "ömürboyu təhsil" sisteminin gücləndirilməsi istiqamətində 3 hədəf müəyyənləşdirilib. 4000 nəfərin peşə təhsilində qısamüddətli təlimlərə cəlb edilməsi, ali təhsil müəssisələrində yüksəkixtisaslı mütəxəssislər hazırlayan kursların təşkili istiqamətində artıq müəyyən addımlar var. Məsələn, bu il Təhsil Nazirliyi tərəfindən 2000 nəfərdən çox şəxs İKT sahəsində kurslara cəlb edilib. Təhsil naziri bildirib ki, bu sahədə çox böyük faizlə gənclərin işlə təminatını müşahidə etdiklərindən qarşıdakı illərdə daha çox şəxsin qısamüddətli kurslara cəlb edilməsi planlaşdırılır. Ayrı-ayrı peşələr üzrə təcrübəsi olan şəxslərə müvafiq peşə təhsili sənədinin verilməsini nəzərdə tutan qeyri-formal və informal təhsil proqramlarının tanınması məsələsində də əhəmiyyətli nəticələr əldə ediləcək. Belə ki, Strategiyanın əhatə etdiyi dövrün sonunda daha 35 peşəyə müvafiq təhsil sənədi təqdim ediləcək.

### Hər 6 şagirdə 1 kompüter

Rəqəmsal səriştələrin artırılması, İKT-nin təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi istiqamətində görülən işlərin nəticəsini rəqəmlərlə ifadə etsək, ilk hədəf hər 6 şagirdə 1 kompüter nisbətinə nail olmaqdır. Bu hədəfə ilin sonunadək nail olmağı planlaşdırdıqlarını deyən E.Əmrullayev bunun inkişaf etmiş ölkələr üçün minimal hədəf sayıldığını, hər şagirdə rəqəmsal mühitdə öyrənmə şəraiti yaratmağa yetərli olduğunu da vurğulayıb. Xatırladaq ki, bu ilin rəqəmlərinə görə, kompüter hər 22 şagirddən birinə düşür.

Elektron tədris resurslarının tətbiqində müsbət dinamikaya nail olunması istiqamətində fəaliyyət davam etdiriləcək. Bu istiqamətdə pandemiya dövründə əsaslı iş aparıldığını vurğulayan nazirin sözlərinə görə, bu dinamika davam etdiriləcək. Dövrün sonuna 40000 tədris resursunun yaradılması hədəflənib.

Müxtəlif təhsil pillələri və ümumi idarəetmə üzrə 26 informasiya sistemi və elektron xidmət istifadəyə veriləcək.

Nəhayət, işçi heyətindən 10000 nəfər rəqəmsal bacarıqlarının artırılması istiqamətində təlimlərə cəlb ediləcək.

Nazir həmçinin, bütün təhsil pillələri üzrə informasiya sistemlərinin və elektron xidmətlərin təkmilləşdiriləcəyi, peşə təhsili müəssisələrinə qəbul olan tələbələrin sayının artırılacağı, məktəblilərimizin beynəlxalq olimpiadalarda qazandıqları uğur və digər bu kimi məsələlər barədə də geniş məlumat verib.

Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunun bu ildən elektron qaydada aparıldığını xatırladan Emin Əmrullayev onu da deyib ki, ölkə üzrə məktəbəqədər təhsilin əhatəsinin genişləndirilməsi qarşıda duran hədəflərdəndir.

**Ruhiyyə DAŞSALAHLI**

# 2022/2023-cü tədris ili üzrə məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunun aparılması barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2022/2023-cü tədris ili üzrə məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatı aparılmaqla elektron sistem vasitəsilə həyata keçirilsin.

**2.** Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu üçün valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatına və müəssisə seçiminə 2022-ci ilin iyul ayının 18-dən etibarən başlanılsın.

**3.** Məktəbəqədər təhsil müəssisələrinə qəbul ilə bağlı prosesin əlaqələndirilməsi və səmərəli təşkil edilməsi məqsədilə yaradılmış işçi qrupunun tərkibi təsdiq olunsun (əlavə olunur).

**4.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Regional Təhsil İdarələrinə tapşırılsın ki:

4.1. aidiyyəti yerli təşkilatlarla birgə 2022/2023-cü tədris ilində məktəbəqədər təhsil müəssisələrinə qəbul olunacaq uşaqların sayının dəqiqləşdirilməsini;

4.2. məktəbəqədər təhsil müəssisələrində lazımi təlim şəraitinin təmin olunması istiqamətində tədbirlərin həyata keçirilməsini;

4.3. məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunun elektron sistem vasitəsilə həyata keçirildiyini nəzərə alaraq, tabeliklərində olan müəssisələrin məktəbəqədər qruplarına uşaqların qeydiyyatının *bq.edu.az* sistemində aparılmasını və valideynlərin bu barədə məlumatlandırılmasını təmin etsinlər.

**5.** Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsi (Elnur Əliyev) məktəbəqədər təhsil müəssisələrinə uşaq qəbulu prosesinin gedişatı ilə bağlı sentyabr ayı ərzində iki dəfə, sonrakı aylarda isə bir dəfə olmaqla müvafiq hesabat təqdim etsin.

**6.** Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsi (Elnur Əliyev), Hüquq şöbəsi (Səbuhi Mahmudov) məktəbəqədər təhsil müəssisələrinə qəbul prosesinin elektron qaydada aparılması ilə bağlı mövcud hüquqi aktlarda müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təklifləri (1 ay müddətində) hazırlayaraq rəhbərliyə təqdim etsin.

**7.** Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (Vüsal Xanlarov) dövlət məktəbəqədər təhsil müəssisələrinə uşaqların elektron sistem vasitəsilə qəbulu üçün proqram təminatı ilə bağlı lazımi tədbirlərin icrasını təmin etsin.

**8.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin surətinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Regional Təhsil İdarələrinə və Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

**9.** İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu ilə bağlı ictimaiyyətin məlumatlandırılmasını, bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**10.** Əmrin icrasına nəzarət nazir müavini Muxtar Məmmədova həvalə edilsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*18 iyul 2022-ci il*

# Təhsil naziri Lənkəranda vətəndaşları qəbul edib

İyulun 26-da təhsil naziri Emin Əmrullayev Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad və Yardımlı rayonlarında qeydiyyatda olan sakinlər, eləcə də qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, işə bərpa olunma, dərs saatlarının artırılması, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

# Ümumi təhsil müəssisələrinin 2021-2022-ci tədris ili üzrə məzunlarının qızıl və gümüş nişanla təltifi haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 yanvar tarixli 8 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş nişanla təltif olunma Qaydası"na, 2021-2022-ci tədris ilində tam orta təhsil səviyyəsi üzrə aparılmış yekun attestasiyanın nəticələrinə əsasən Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Aşağıda adları qeyd edilən XI sinif məzunları qızıl nişanla təltif olunsunlar:

1.1. Səfərov Xəzri Araz oğlu - Naxçıvan MR Naxçıvan şəhəri Heydər Əliyev adına hərbi lisey;

1.2. Allahverdiyeva Nurgün Yəhya qızı - Naxçıvan MR Naxçıvan şəhəri 8 nömrəli tam orta məktəb;

1.3. Eynalova Aynur Rasim qızı - Naxçıvan MR Naxçıvan şəhəri 8 nömrəli tam orta məktəb;

1.4. Rzalı Ləman Emin qızı - Naxçıvan MR Naxçıvan şəhəri 11 nömrəli tam orta məktəb;

1.5. Əliyev Ədalət Abbas oğlu - Naxçıvan MR Naxçıvan şəhəri 12 nömrəli tam orta məktəb;

1.6. Kərimova Nigar Vəfadar qızı - Naxçıvan MR Naxçıvan şəhəri 15 nömrəli tam orta məktəb;

1.7. Məhərrəmov Mahir Samir oğlu - Naxçıvan MR Qarnizon tam orta məktəbi;

1.8. Əlisoy Cahangir Anar oğlu - Naxçıvan MR Şərur şəhəri Fizika-riyaziyyat təmayüllü lisey;

1.9. Vəliyeva Nərmin Məhərrəm qızı - Naxçıvan MR Şərur şəhəri 2 nömrəli tam orta məktəb;

1.10. Bayramova Aysun Zakir qızı - Naxçıvan MR Şərur şəhəri 2 nömrəli tam orta məktəb;

1.11. Məmiyev Fuad Məhəmməd oğlu - Naxçıvan MR Babək rayonu Zeynəddin kənd tam orta məktəbi;

1.12. Nəsirli Səltənət Rəcəb qızı - Naxçıvan MR Babək rayonu Yarımca kənd tam orta məktəbi;

1.13. Yusifli Ceyran Zülfüqar qızı - Naxçıvan MR Ordubad rayonu Nüsnüs kənd tam orta məktəbi;

1.14. Yusifli Pərvin Zülfüqar qızı - Naxçıvan MR Ordubad rayonu Nüsnüs kənd tam orta məktəbi;

1.15. Fətullayev Əvəz Əli oğlu - Naxçıvan MR Ordubad rayonu Nüsnüs kənd tam orta məktəbi;

1.16. Mehdiyeva Zeynəb Səbuhi qızı - Naxçıvan MR Ordubad rayonu Kotam kənd tam orta məktəbi;

1.17. Mehdiyeva Turac Çingiz qızı - Naxçıvan MR Kəngərli rayonu Yurdçu kənd tam orta məktəbi;

1.18. Şəfizadə Emil Qılman oğlu - Naxçıvan MR Kəngərli rayonu Qarabağlar kənd 2 nömrəli tam orta məktəb;

1.19. Kazımlı Yusif Qurban oğlu - Naxçıvan MR Şahbuz şəhəri 1 nömrəli tam orta məktəb;

1.20. Musazadə Elçin Elnur oğlu - Bakı şəhəri 2 nömrəli texniki-humanitar lisey;

1.21. Vəliyeva Aytac Xanlar qızı - Bakı şəhəri 2 nömrəli texniki-humanitar lisey;

1.22. Baxşəliyeva Nərgiz Elçin qızı - Bakı şəhəri 34 nömrəli tam orta məktəb;

1.23. Muradzadə Rəvan Zaur oğlu - Bakı şəhəri 44 nömrəli tam orta məktəb;

1.24. Aslanlı Zakir Zaur oğlu - Bakı şəhəri 53 nömrəli tam orta məktəb;

1.25. Allahverdiyev Ramin Gündüz oğlu - Bakı şəhəri 62 nömrəli məktəb-lisey;

1.26. Quluyev Ömər Eldəniz oğlu - Bakı şəhəri 72 nömrəli tam orta məktəb;

1.27. Baxışlı Arif Elçin oğlu - Bakı şəhəri 89 nömrəli tam orta məktəb;

1.28. Allahverdiyev Əli Ələkbər oğlu - Bakı şəhəri 89 nömrəli tam orta məktəb;

1.29. Məmmədov Səlim Nurməmməd oğlu - Bakı şəhəri 108 nömrəli tam orta məktəb;

1.30. Qurbanov Fuad Polad oğlu - Bakı şəhəri 111 nömrəli tam orta məktəb;

1.31. Ağazadə Nigar Əhədulla qızı - Bakı şəhəri 125 nömrəli tam orta məktəb;

1.32. Rzayev Ələmdar Əhəd oğlu - Bakı şəhəri 128 nömrəli tam orta məktəb;

1.33. Həsənli Rüfət Rauf oğlu - Bakı şəhəri 129 nömrəli tam orta məktəb;

1.34. Əliyev Vaqif Cəmaləddin oğlu - Bakı şəhəri 147 nömrəli texniki-humanitar lisey;

1.35. Məlikova Nəzrin Emin qızı - Bakı şəhəri 149 nömrəli tam orta məktəb;

1.36. Mikayıl-zadə Xədicə Ceyhun qızı - Bakı şəhəri 187 nömrəli tam orta məktəb;

1.37. Həsənov Yusif Əhməd oğlu - Bakı şəhəri 236 nömrəli tam orta məktəb;

1.38. Məlikli İnci Səfər qızı - Bakı şəhəri 249 nömrəli tam orta məktəb;

1.39. İskəndər Murad Nazim oğlu - Bakı şəhəri 287 nömrəli "Zəkalar" liseyi;

1.40. Abbasova Xədicə İsrafil qızı - Bakı şəhəri 287 nömrəli "Zəkalar" liseyi;

1.41. Cabbarlı Cəlil Mehman oğlu - Bakı şəhəri 291 nömrəli "Ekologiya" liseyi;

1.42. Aslanzadə Ayna Məhəmmədəli qızı - Sumqayıt şəhəri 3 nömrəli tam orta məktəb;

1.43. Şamsudinov Nail Nazim oğlu - Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəb;

1.44. Tahirova Nərmin Kazbek qızı - Sumqayıt şəhəri "Təfəkkür" liseyi;

1.45. Abdullayeva Rəvanə Rasim qızı - Sumqayıt şəhəri "Təfəkkür" liseyi;

1.46. Aslanlı Fidan Zahid qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

1.47. Dünyamalıyeva Nuray Elnur qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

1.48. Rəhimli Fərid Rüstəm oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

1.49. Məlikov Ziya Xəyal oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

1.50. Camaləddinli Cəmil Mürşüd oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

1.51. Nuriyev Ömər Sənan oğlu - Gəncə şəhəri 4 nömrəli xarici dillər təmayüllü məktəb-lisey;

1.52. Süleymanova Aytac Anar qızı - Gəncə şəhəri 6 nömrəli tam orta məktəb;

1.53. Əliyev Fariz Nazim oğlu - Gəncə şəhəri 27 nömrəli məktəb-lisey;

1.54. Tanırverdiyev Ayxan Vüqar oğlu - Gəncə şəhəri 39 nömrəli tam orta məktəb;

1.55. Ataşova Gülşən Azər qızı - Mingəçevir şəhəri Texniki-humanitar lisey;

1.56. Abdullazadə Kamil Adil oğlu - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey;

1.57. Behputov Elnur Elxan oğlu - Mingəçevir şəhəri Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey;

1.58. Əli-Pur Selcan Zaur qızı - Abşeron rayonu Xırdalan şəhəri 10 nömrəli tam orta məktəb;

1.59. Həsənzadə Rəvan Anar oğlu - Ağdam rayonu 2 nömrəli tam orta məktəbi;

1.60. Əliyeva İlahə İlqar qızı - Ağdam rayonu 74 nömrəli tam orta məktəbi;

1.61. Heydərov İsa Mehman oğlu - Ağsu rayonu Musabəyli kənd tam orta məktəb;

1.62. Mehdizadə Sadıq Ramil oğlu - Cəbrayıl rayonu 23 nömrəli tam orta məktəb;

1.63. Məmmədzadə İsmayıl Elşən oğlu - Cəlilabad rayonu Uzuntəpə kənd 1 nömrəli tam orta məktəb;

1.64. Həsənova Şəbnəm Gəncəvi qızı - Gədəbəy rayonu Çanaqçı kənd tam orta məktəbi;

1.65. Bəkirov Fərhad Əzizağa oğlu - Xaçmaz şəhəri Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-lisey;

1.66. İsrafilov Nəriman Fərman oğlu - Xaçmaz şəhəri Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-lisey;

1.67. Namazova Lamiyə Mübariz qızı - İsmayıllı şəhəri 3 nömrəli məktəb-lisey;

1.68. Ağayev Raul Mübariz oğlu - İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəb;

1.69. Səfərli Əbülfəz Rasim oğlu - İsmayıllı rayonu Lahıc qəsəbə tam orta məktəbi;

1.70. Qədirova Lalə Pərviz qızı - İsmayıllı rayonu Cülyan kənd tam orta məktəbi;

1.71. Qaniyev Elşən Elçin oğlu - İsmayıllı rayonu Diyallı kənd tam orta məktəbi;

1.72. Əkbərli Emil Nazir oğlu - İsmayıllı rayonu Diyallı kənd tam orta məktəbi;

1.73. İmaməliyeva Ləman Ənvər qızı - Kəlbəcər rayonu 67 nömrəli tam orta məktəb;

1.74. Abuşova Xədicə Vüqar qızı - Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbi;

1.75. Məsimova İlahə Cahangir qızı - Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbi;

1.76. Musayeva Gülşən Mahir qızı - Qəbələ şəhəri 2 nömrəli tam orta məktəb;

1.77. Alməmmədov Fərid Araz oğlu - Qəbələ rayonu Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb;

1.78. Yusibov Şəhriyar Səfa oğlu - Qəbələ rayonu Həmzəli kənd tam orta məktəbi;

1.79. Həbibov Nəsib Həbib oğlu - Qubadlı rayonu Əliquluuşağı kənd tam orta məktəbi;

1.80. Pirnəzərov Murad Firdusi oğlu - Qusar şəhəri 1 nömrəli tam orta məktəb;

1.81. Əskərova Gülay Pərviz qızı - Lənkəran rayonu Şürük kənd tam orta məktəbi;

1.82. Şükürova Xanım Vüqar qızı - Saatlı şəhəri 4 nömrəli tam orta məktəb;

1.83. Əlizadə Kənan Hikmət oğlu - Salyan şəhəri 2 nömrəli tam orta məktəb;

1.84. Yaqubova Esmira Qabil qızı - Salyan rayonu Çuxanlı kənd tam orta məktəbi;

1.85. Cəbrayılov Hikmət Səxavət oğlu - Şabran şəhəri 4 nömrəli tam orta məktəb;

1.86. Süleymanlı İlkin Elçin oğlu - Şəki şəhəri 11 nömrəli tam orta məktəb;

1.87. Məmmədov Orxan Qorxmaz oğlu - Şəki şəhəri 21 nömrəli tam orta məktəb;

1.88. Əsgərova Sibel Talıb qızı - Şəki şəhəri Fizika-riyaziyyat və humanitar fənlər təmayüllü lisey;

1.89. Əhmədzadə Selcan Elşən qızı - Şəmkir rayonu Dəllər Cəyir kənd tam orta məktəbi;

1.90. Qarayev Murad Rövşən oğlu - Tərtər rayonu Mamırlı kənd tam orta məktəbi;

1.91. Məmmədli Fidan Elşad qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey;

1.92. Abdulhəmidov Murad Ramil oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey;

1.93. Fətəliyev Fəqan Vüqar oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey;

1.94. İsmayılov Hüseyn Asəf oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey;

1.95. Usubova Aysu Emil qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;

1.96. Sadıqova Həmidə Cəmşid qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;

1.97. Sadıqova Nəzrin Cəmşid qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;

1.98. İsimxanova Nurcan Emin qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;

1.99. Abbasov Toğrul Namiq oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.100. Ağayev Səbuhi Hicran oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.101. Babayeva Maisə Rauf qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.102. Cəfərzadə Amin Anar oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.103. Mahmudov Nihat Ceyhun oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.104. Mantaşlı Şamil Natiq oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.105. Məmmədli Nihat Elgiz oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.106. Nəsibov Nicat Yusif oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

1.107. Bağırov Əli Əhmədəli oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki "Ankara məktəbi" məktəb-liseyi;

1.108. Hacıyev Rauf Rüfət oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyi;

1.109. Məlikzadə Sərxan Mərkəz oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyi;

1.110. Soltanova Fidan İlqar qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyi;

1.111. Abbasova Aydan Elşən qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Humanitar fənlər təmayüllü məktəb-lisey;

1.112. Kərimli Pərviz İlqar oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyi;

1.113. Kərimov Fəxri Əliağa oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəb;

1.114. Nəbiyev İlham Rövşən oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəb;

1.115. Qafarova Xalidə Kamran qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 132-134 nömrəli Təhsil Kompleksi;

1.116. Piriyeva Məhsəti Natiq qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü lisey;

1.117. Eminzadə Şəhriyar Ərəstun oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü lisey;

1.118. Əliyeva Aytac Nəsimi qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Şəki şəhəri Kimya-biologiya təmayüllü lisey;

1.119. Cəfərov Camal Pərviz oğlu - Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi;

1.120. Mikayılzadə Şükran Mühəndis qızı - Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi;

1.121. Şirinli Nəriman Elşən oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.122. Həbibullayev Rəfsan Namiq oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.123. Süleymanova Tamilla Rövşən qızı - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.124. Kərimi Nuray Əli qızı - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.125. İskəndərli Rəcəb Orxan oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.126. Cəfərli Ləman Fuad qızı - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.127. Zeynalov Amin Niyazi oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

1.128. Novruzova Aynur Ceyhun qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi;

1.129. Niftəliyev Rəşad Yalçın oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi;

1.130. Məmmədzadə Şəms Nicat qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi;

1.131. Şirinov Simranağa Faik oğlu - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi;

1.132. Nəbiyeva Ayan Kamran qızı - Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi;

1.133. Nağızadə Toğrul Habil oğlu - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi;

1.134. Nəsibov Səid Zaur oğlu - Heydər Əliyev adına Müasir Təhsil Kompleksi;

1.135. Hacıyev Rəhman Abbas oğlu - Bakı Modern Təhsil Kompleksi;

1.136. Nuriyev Səməd Yusif oğlu - Biləsuvar rayonu Mübariz İbrahimov adına Bağça-Məktəb-Lisey Kompleksi.

**2.** Aşağıda adları qeyd edilən XI sinif məzunları gümüş nişanla təltif olunsunlar:

2.1. Rəhimli İnayət Vəfa qızı - Naxçıvan MR Heydər Əliyev adına tam orta məktəb;

2.2. Məmmədova Nuray Vüqar qızı - Naxçıvan MR Naxçıvan Qızlar Liseyi;

2.3. Cəbrayılova Aytac Vüqar qızı - Naxçıvan MR Qarnizon tam orta məktəbi;

2.4. Məmmədli Nəzrin Əkrəm qızı - Naxçıvan MR Naxçıvan şəhəri 14 nömrəli tam orta məktəb;

2.5. Bağırzadə Fatimə Vüqar qızı - Naxçıvan MR Naxçıvan şəhəri 14 nömrəli tam orta məktəb;

2.6. Quluzadə Humay Vüqar qızı - Naxçıvan MR Naxçıvan şəhəri 14 nömrəli tam orta məktəb;

2.7. Rzayeva Sevgi Abil qızı - Naxçıvan MR Naxçıvan şəhəri 15 nömrəli tam orta məktəb;

2.8. Həsənli Aytən Anar qızı - Naxçıvan MR Naxçıvan şəhəri 15 nömrəli tam orta məktəb;

2.9. Əliyev İsmayıl Xəqani oğlu - Naxçıvan MR Naxçıvan şəhəri 17 nömrəli tam orta məktəb;

2.10. Məmmədzadə Nuray Xəzər qızı - Naxçıvan MR Naxçıvan şəhəri 17 nömrəli tam orta məktəb;

2.11. Qasımova Firuzə Elçin qızı - Naxçıvan MR Naxçıvan şəhəri 17 nömrəli tam orta məktəb;

2.12. Əlizadə Nicat Məmməd oğlu - Naxçıvan MR Şərur şəhəri Fizika-riyaziyyat təmayüllü lisey;

2.13. Əhmədova Yeganə Yaşar qızı - Naxçıvan MR Şərur şəhəri 2 nömrəli tam orta məktəb;

2.14. Babayev Səfər Qasım oğlu - Naxçıvan MR Şərur rayonu Ələkli kənd tam orta məktəbi;

2.15. Nəcəfov Samir Faiq oğlu - Naxçıvan MR Şərur rayonu Kürkənd kənd tam orta məktəbi;

2.16. Hüseynova Pərvanə Məzahir qızı - Naxçıvan MR Ordubad rayonu Aşağı Əylis kənd tam orta məktəbi;

2.17. Rəsulov Kənan Asiman oğlu - Naxçıvan MR Ordubad şəhəri internat tam orta məktəbi;

2.18. Heydərzadə Dilşad Elşad qızı - Naxçıvan MR Culfa rayonu Saltaq kənd tam orta məktəbi;

2.19. Novruzova Mehriban Camal qızı - Naxçıvan MR Culfa rayonu Saltaq kənd tam orta məktəbi;

2.20. İmanova Dəniz Vaqif qızı - Naxçıvan MR Culfa rayonu Yaycı kənd 2 nömrəli tam orta məktəb;

2.21. Hacıyev Şahin Tofid oğlu - Naxçıvan MR Culfa rayonu Ərəzin kənd tam orta məktəbi;

2.22. Nəzərli Məhəmməd Naib oğlu - Naxçıvan MR Culfa rayonu Qızılca kənd tam orta məktəbi;

2.23. Məmmədova Sənubər Telman qızı - Bakı şəhəri 18 nömrəli tam orta məktəb;

2.24. Hüseynov Riad Fuad oğlu - Bakı şəhəri 18 nömrəli tam orta məktəb;

2.25. Aşumova Nigar Eldar qızı - Bakı şəhəri 27 nömrəli tam orta məktəb;

2.26. Əliyeva Aylin Rəşad qızı - Bakı şəhəri 44 nömrəli tam orta məktəb;

2.27. İsmayılzadə Cavad Calal oğlu - Bakı şəhəri 72 nömrəli tam orta məktəb;

2.28. Zeynalov Ərrəhman Sadiq oğlu - Bakı şəhəri 128 nömrəli tam orta məktəb;

2.29. İsgəndərli Elşad Məhərrəm oğlu - Bakı şəhəri 149 nömrəli tam orta məktəb;

2.30. Alşanova Nigar İsa qızı - Bakı şəhəri 175 nömrəli tam orta məktəb;

2.31. Əliyev Elçin Cavanşir oğlu - Bakı şəhəri 196 nömrəli tam orta məktəb;

2.32. Kuznetsov Pavel Valeriyeviç - Bakı şəhəri 214 nömrəli tam orta məktəb;

2.33. Qasımlı Ramin Aqşin oğlu - Bakı şəhəri 220 nömrəli tam orta məktəb;

2.34. Səmədov İlkin Anar oğlu - Bakı şəhəri 260 nömrəli tam orta məktəb;

2.35. Orucov Ramil Ramin oğlu - Bakı şəhəri 281 nömrəli tam orta məktəb;

2.36. Hüseynli Hüseyn Famil oğlu - Bakı şəhəri 309 nömrəli tam orta məktəb;

2.37. Sərkərova Eliza Murad qızı - Bakı şəhəri 309 nömrəli tam orta məktəb;

2.38. Vəliyev Nicat Xəyyam oğlu - Bakı şəhəri 313 nömrəli tam orta məktəb;

2.39. Məhərrəmli Kənan Mehdi oğlu - Sumqayıt şəhəri 30 nömrəli tam orta məktəb;

2.40. Qurbanova Mehrəngiz Qurban qızı - Sumqayıt şəhəri "Təfəkkür" liseyi;

2.41. Məmmədli Nihat Seymur oğlu - Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi;

2.42. Cəfərli Cavid İsmət oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

2.43. Qafarova Gülarə Rəşid qızı - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

2.44. Cəfərov Rəşid Telman oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

2.45. Məhərrəmov Araz Məhərrəm oğlu - Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya;

2.46. Ələkbərova Aytən İxtiyar qızı - Şirvan şəhəri 1 nömrəli tam orta məktəb;

2.47. Tağıyeva Könül Azər qızı - Mingəçevir şəhəri 18 nömrəli tam orta məktəb;

2.48. Musayev Murad Firqət oğlu - Ağdaş şəhəri M.Şeyxzadə adına Texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziya;

2.49. Eldarova Elvira İbad qızı - Balakən şəhəri 1 nömrəli tam orta məktəb;

2.50. Ağazadə Xalidə Xanbala qızı - Cəlilabad rayonu Ocaqlı kənd 1 nömrəli tam orta məktəb;

2.51. Qarazadə İsa Ramiq oğlu - Cəlilabad rayonu Alar kənd 3 nömrəli tam orta məktəb;

2.52. Allahverdiyeva İlahə Mürfəzil qızı - Füzuli rayonu 33 nömrəli tam orta məktəb;

2.53. Qəribli Nərmin Mübariz qızı - Qəbələ şəhəri 2 nömrəli tam orta məktəb;

2.54. Tağıyev İlkin Vüsal oğlu - Qubadlı rayonu Xanlıq kənd 1 nömrəli tam orta məktəb;

2.55. Bunyatov Rəsul Farman oğlu - Qusar şəhəri 2 nömrəli tam orta məktəb;

2.56. Səfərov Hüseyn Elçin oğlu - Lənkəran rayonu Bəlləbur kənd tam orta məktəbi;

2.57. Hüseynova Aysun Oktay qızı - Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü lisey;

2.58. Əbilova Gülsabah Çingiz qızı - Masallı rayonu Sığdaş kənd tam orta məktəbi;

2.59. Abdulrəhmanlı Sadiq Müşfiq oğlu - Neftçala şəhəri 4 nömrəli tam orta məktəb;

2.60. Cəfərov Eyvaz Cəfər oğlu - Şuşa şəhəri 1 nömrəli tam orta məktəb;

2.61. Səfərov Sultanmurad Ramazan oğlu - Zaqatala şəhəri Akademik Zərifə Əliyeva adına Texniki fənlər təmayüllü lisey;

2.62. Qarakişiyeva Xədicə Aydın qızı - Zaqatala şəhəri Akademik Zərifə Əliyeva adına Texniki fənlər təmayüllü lisey;

2.63. Əfəndi Ömər Elxan oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey;

2.64. Əzizov Nizami Elçin oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Akademik Zərifə Əliyeva adına lisey;

2.65. Məmmədov Rüfət Bəgiş oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

2.66. Novruzlu Yağmur Qorxmaz qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

2.67. Orucov Vüsət İlqar oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyi;

2.68. Rzayev Əlirza Muşviqoviç - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Humanitar fənlər təmayüllü məktəb-lisey;

2.69. Əhmədova Aydan Rafiq qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyi;

2.70. Məmmədova Fəxriyyə Fəxri qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyi;

2.71. Qasımov Faiq Azad oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Bakı Avropa liseyi;

2.72. Məhərrəmli Nicat Elxan oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyi;

2.73. Hənifəyev Üzeyir Ruslan oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəb;

2.74. Əlizadə Cavidan Vüsal oğlu - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 132-134 nömrəli Təhsil Kompleksi;

2.75. Ağamirzəyev Murad Əliş oğlu - Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksi;

2.76. Məmmədli Zəhra Fəzli qızı - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

2.77. Hacıyev Fərhad Vüqar oğlu - BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi;

2.78. Əlisoy Aqşin Habil oğlu - "Kaspi Liseyi" ümumtəhsil məktəbi;

2.79. Miriyev Rüfət Səyavuş oğlu - Bakı Modern Təhsil Kompleksi.

**3.** Qızıl və gümüş nişanla təltif olunmuş təhsilalanların adları oxuduqları məktəbin "Şərəf kitabı"na yazılsın.

**4.** Təhsil Nazirliyi Aparatının İnformasiya və vətəndaşlara xidmət şöbəsinə (Rəşad Xanlarov) tapşırılsın ki, bu əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına çatdırılmasını təmin etsin.

**5.** Təhsil Nazirliyi Aparatının İctimaiyyətlə əlaqələr sektoruna (Cəsarət Valehov) tapşırılsın ki, bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**6.** Əmrin icrasına nəzarət nazir müavini Muxtar Məmmədova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*25 iyul 2022-ci il*

Azərbaycan tibb tarixinin ilk böyük forumunun 18-21 iyun 2022-ci il tarixlərdə Naxçıvan şəhərində keçirilməsi uzun illər ərzində bu bölgədə qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir.

# Tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu

## I BEYNƏLXALQ TİBBİ FORUM

**Elbrus İSAYEV,**
*Naxçıvan Dövlət Universitetinin rektoru*

Bununla əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2022-ci il iyunun 10-da "Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında" Sərəncam imzalamış, forumun keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır.

Bu gün cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında xüsusi rolu olan Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hər bir millətin tərəqqisinin əsas istiqamətlərindən biri olan elmə, təhsilə və səhiyyəyə göstərilən böyük diqqət və qayğı aparılan intibah hərəkatının üzvi tərkib hissəsi kimi muxtar respublikamızın daha da inkişaf etməsini şərtləndirən əsas amillərdəndir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli səhiyyə sistemi, hər şeydən əvvəl, səhiyyədə ənənəviliklə müasirliyin üzvi vəhdətinin təmin olunması, eləcə də Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğunlaşdırılması prinsiplərinə əsaslanır. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən səhiyyənin və xüsusilə də ali tibb təhsilin inkişafına xüsusi əhəmiyyət verilməsi, yüksək qayğı və diqqət göstərilməsi, yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm yer verilməsi sayəsində böyük uğurlar qazanılmaqdadır. Bu müddətdə, Naxçıvan Dövlət Universitetində də ardıcıl və hərtərəfli dövlət qayğısı sayəsində təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikasında böyük inkişaf mərhələsi kimi səciyyələnən bu dövr universitet həyatı üçün də əlamətdar olmuşdur. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı məqsədilə nəzərdə tutulan proqram və layihələr, regionun sosial-iqtisadi inkişafı ilə paralel aparılaraq bütövlükdə ölkəmizdə həyata keçirilən düzgün, düşünülmüş inkişaf strategiyasının uğurlu nəticəsi hesab edilir.

Naxçıvan Dövlət Universitetində beynəlxalq fəaliyyətin tənzimlənməsi və inkişafı üzrə siyasi xəttin fəlsəfəsi, Azərbaycan təhsilini, uğurlu nəticələr qazanmış ölkələrin təhsil təcrübələri ilə zənginləşdirməkdən ibarətdir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə, dünya ölkələrinin ali məktəbləri ilə əlaqələrin qurulması və əməkdaşlığın yüksələn xətlə inkişafının prioritet təyin edilməsinin məntiqi yekunu olaraq Naxçıvan Dövlət Universitetinin dünyanın ən yaxşı universitetləri sırasında - "Times Higher Education" (THE World University Rankings 2022) versiyası üzrə aparılan reytinq siyahısında yer alması qürurverici nailiyyətdir.

Azərbaycan Respublikasının ən dəyərli, qabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilən, şərəfli inkişaf yolu keçən, muxtar respublikanın əsas tibbi elm və təhsil mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə diqqəti cəlb edir. Universitetdə inkişaf etmiş ali tibb təhsili müəssisələri üçün xarakterik olan bütün struktur bölmələr yaradılmış, ilk dəfə olaraq burada müxtəlif yeniliklər tətbiq edilmiş və onların səmərəli fəaliyyəti təmin edilmişdir.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Tibb fakültəsi böyük inkişaf yolu keçib, muxtar respublikada ixtisaslı həkim hazırlığının əsası qoyulub. Ötən 23 ildə fakültədə tələbələrin təhsili üçün lazımi şərait yaradılıb, müasir xəstəxana istifadəyə verilib, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulub. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 8 ixtisas üzrə 1284 tələbə təhsil alır ki, onlardan da 847-si xarici ölkə vətəndaşıdır.

Yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün Tibbi profilaktika, Müalicə işi, Əczaçılıq, Stomatologiya, 2020-ci ildən "Tibb" və "İctimai səhiyyə", 2021-ci ildən isə "Hərbi tibb" və "Psixologiya" ixtisasları üzrə həkim, eləcə də 32 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir. Ötən dövrdə fakültəni bitirən, bu gün səhiyyə müəssisələrində çalışan, ürək və digər cərrahi əməliyyatları uğurla həyata keçirən, həmçinin dünyanın bir çox ölkələrində - Almaniya, İspaniya, Hollandiya, ABŞ, Nigeriya, Türkiyə, İran, Kipr, Gürcüstan və b. xarici ölkələrdə də həkim kimi fəaliyyət göstərən məzunlarımız vardır.

Naxçıvan səhiyyəsinin inkişafı tarixində xüsusi yerə malik universitet öz fəaliyyətində təhsili, elmi və tibbi daim üzvi şəkildə birləşdirmiş, ötən illər ərzində təbabətin ən müxtəlif sahələri üçün yüksək bilikli və bacarıqlı kadrların yetişməsində, həmçinin mötəbər elmi mərkəz kimi fundamental tədqiqatların aparılmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvan Dövlət Universitetində beynəlxalq əməkdaşlıq əlaqələrinin davamlı genişləndirilməsi və tibb təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən siyasət bəhrələrini verməkdədir.

"I Beynəlxalq Tibbi Forum" praktik tibb fəaliyyəti ilə məşğul olan həkimlərin bilik, bacarıq və peşəkar vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş proses kimi, Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditasiya olunmaqla ölkədə və ya beynəlxalq səviyyədə qeydiyyata alınmış davamlı tibbi təhsil (DTT) üzrə hər il minimal zəruri miqdar olan 48 kreditdən, hər iştirakçı üçün 24 kredit vahidi, məruzəçilər üçün isə 29 kredit vahidinin toplanması baxımından mühüm əhəmiyyət daşımışdır.

Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə 3 dildə - Azərbaycan, ingilis və rus dillərində keçirilən, Azərbaycan tarixində böyük həcmdə təşkil olunmuş ilk tibbi forumda dünyanın 7 ölkəsindən 400-ə yaxın tibb sahəsi üzrə elm adamı daxil olmaqla 700-dən çox mütəxəssis iştirak etmişdir.

Forumda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev, Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcı, İstanbul Yeditəpə Universitetinin rektoru, professor Canan Aykut Bingöl, Ərdəbil Universitetinin prorektoru, professor Farhad Pourfarzi, Qazi Universiteti, Ərzurum Atatürk Universiteti, İstinye Universiteti, Koç Universiteti, Qaziantep Universiteti, Rusiya Vişnevskiy İnstitutu, Dağıstan Dövlət Tibb Universiteti, Özbəkistanın Daşkənd Tibb Akademiyasının yüksək vəzifəli təmsilçiləri iştirak etmişlər. Universitetlərlə yanaşı, forumda iştirak üçün müxtəlif tibb müəssisələrinin rəhbər və məsul işçiləri - Respublika Klinik Xəstəxanasının direktoru, tibb üzrə fəlsəfə doktoru Azər İsmayılov, Bakı Sağlamlıq Mərkəzinin direktoru, dosent Asiman Həsənov, Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb üzrə fəlsəfə doktoru Allahverdi Musayev, Memorial Şişli Xəstəxanası orqan transplantasiyası bölməsinin sədri, professor Koray Acarlı, Qazaxıstan Milli Elmi Cərrahiyyə Mərkəzindən dosent Mismil Muradov, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzindən dosent Dilqəm Məhərrəmov, Almaniya Nurnberg Beta Bayern Biotech nümayəndəsi, tibb üzrə fəlsəfə doktoru Cəlal Solati, LİV Hospitaldan professor Koray Karabulut, İstinye Universiteti "Urologiya" kafedrasının müdiri, professor Volkan Tuğçu və b. Naxçıvan şəhərində oldular.

Forumda bir sıra nüfuzlu beynəlxalq dərnək və cəmiyyət sədrləri - Azərbaycan Endoskopik-Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyinin sədri, dosent Müşviq Həsənov, Türk Gastroenteroloji Dərnəyi sədri, professor Dilek Oğuz, Ulusal Endoskopik Laparoskopik Cərrahi Dərnəyi fəxri sədri, professor Cavit Avcı, Türkiyə Obezite Cərrahi Dərnəyi sədri, professor Mustafa Taşkın, Türkiyə Pelvik Ağrı & Endometriozis Dərnəyi sədri, professor Erkut Attar, Türk Ostomi Cerrahi Dərnəyi sədri, professor Ömer Alabaz, YOUNG İFSO prezidenti, dosent Halit Eren Taşkın, Sağlamlıq Assosiasiyasının prezidenti, professor Qalib Qarayev, Azərbaycan Qastroenteroloq və Hepatoloqları İctimai Birliyinin prezidenti, dosent Gülnarə Ağayeva, Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, dosent Cabbar Həsənov, Böyrək Transplantasiyası Mütəxəssislər Assosiasiyasının sədri, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolan, "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Taryel Ömərov, Plastik Cərrahlar Assosiasiyasının sədri, professor Vaqif Qələndər, AELCD-nin İnvaziv Endoskopiya bölməsinin sədri, tibb üzrə fəlsəfə doktoru Aqil Ağakişiyev və başqaları iştirak etmişdir.

Forumun açılışından əvvəl qonaqların ulu öndər Heydər Əliyevin abidəsi önünə gül qoyması və Heydər Əliyev Muzeyi ilə tanışlığı müstəqil Azərbaycanın qurucusu və memarı olmaqla yanaşı, bütün Şərq, Türk dünyasında tanınan görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi kimi tarixdə iz qoyan bu böyük şəxsiyyətə həm də elm və təhsilin, səhiyyənin inkişafı istiqamətində göstərdiyi əvəzsiz xidmətlər qarşısında böyük ehtiramın ifadəsi idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov forumun açılış tədbirində giriş sözü söyləyərək Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibbi Forumun dünyanın mötəbər universitetlərini təmsil edən tanınmış həkim və mütəxəssislər arasında birgə elmi tədqiqatların və fikir mübadiləsinin aparılmasında faydalı olacağına inamını ifadə etmiş, təşkilatçılara təşəkkürünü bildirmiş və demişdir: "Sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilmişdir. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur". Ali Məclisin Sədri səhiyyənin inkişafında ixtisaslı kadr hazırlığının, beynəlxalq elmi-təcrübə mübadiləsinin əhəmiyyətini də xüsusi vurğulamışdır: "Müasir dünyamızda xəstəliklərlə mübarizə prioritet məsələdir. Bu da, öz növbəsində, ixtisaslı tibbi kadr hazırlığını və səhiyyə sistemində ən son elmi nailiyyətlərin tətbiqini zərurətə çevirib. Böyük filosof və tibb alimi İbn Sina deyirdi ki, "Ümidsiz xəstə yoxdur, ümidsiz həkim var". Təcrübə də göstərir ki, həkimlərin peşəkarlığı artırılmadan nə səhiyyənin inkişafından, nə də insan sağlamlığından danışmaq mümkündür. Qarşılıqlı fikir mübadiləsinin aparılması, elmi-tibbi nailiyyətlərin öyrənilməsi və tətbiqi, beynəlxalq təcrübədən faydalanmaq, bu mənada, mühüm əhəmiyyətə malikdir".

Açılış tədbirində Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Qaradəniz Texniki Universitetinin, Türkiyənin Yeditəpə Universitetinin rektorları və digər rəsmi təmsilçilər tərəfindən təbrik çıxışları edilmişdir. Açılış tədbirinin sonunda Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestri və Azərbaycanın tanınmış musiqiçilərinin geniş şəkildə iştirakı ilə konsert proqramı təqdim olunmuşdur.

Forum çərçivəsində bir sıra sahələr üzrə xəstə müayinələri, cərrahi əməliyyatlar təşkil olunmuşdur. Forumun fəxri qonağı İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, tibb elmləri doktoru, professor Əziz Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanası PHŞ-də cərrahi əməliyyatlar, cərrahi stomatologiya üzrə professor Çingiz Rəhimov, tibb üzrə fəlsəfə doktoru Vüqar Qurbanov və tibb üzrə fəlsəfə doktoru Rauf Cəfərovun iştirakı ilə stomatoloji cərrahi əməliyyatlar həyata keçirilmişdir.

Azərbaycan Tibb Universitetinin və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanası PHŞ-də, Diaqnostika Müalicə Mərkəzi PHŞ-də, Universitet Xəstəxanası PHŞ-də və "İmplant Dent Nakhchivan" Stomotoloji Klinikasında "Endokrinologiya", "Oftalmologiya", "Qastroenterologiya", "Urologiya", "Süni mayalanma", "Ginekologiya", "Cərrahi stomatologiya" üzrə konsultativ müayinə və müalicələr aparılmışdır.

Forum müddətində Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Qaradəniz Texniki Universiteti və Yeditəpə Universiteti arasında ayrı-ayrılıqda ikitərəfli əməkdaşlıq müqavilələrinin imzalanması həyata keçirilmişdir. Bununla yanaşı, Naxçıvan Dövlət Universiteti rektorunun nüfuzlu dərnək və cəmiyyət sədrləri ilə görüşləri təşkil olunmuş və həmin qurumlarla gələcək əməkdaşlıqlar haqqında ilkin razılaşmalar əldə olunmuşdur.

Forumun açılışı günü Naxçıvan Dövlət Milli Dram Teatrının foyesində sponsor təşkilatlar tərəfindən muxtar respublikaya gətirilmiş tədris və tibbi avadanlıqlardan ibarət "Müasir tibbi texnologiyalar" sərgisi bütün forum müddətində Naxçıvan Dövlət Universiteti Konservatoriyasının hər 3 mərtəbəsinin foyesində də təşkil olunmuşdur.

Forum müddətində 4 kurs, 1 simulyasiya, 24 bölmə üzrə təşkil olunan elmi konfranslar, tibb elminin aktual problemlərinə həsr olunmuş master klaslar, geniş müzakirələr və diskussiyalar şəraitində keçmişdir. Bu da tibb elminin bütün sahələrini əhatə edən beynəlxalq forumun yerli tibb mütəxəssislərinin zəngin dünyəvi təcrübə qazanması, ən son elmi yeniliklər ilə yaxından tanış olması baxımından əhəmiyyətliliyini bir daha təsdiq edir. Eyni zamanda gələcəkdə elmi və tibbi klinik sferada əməkdaşlıq üçün də geniş üfüqlər açır.

Forumda ilk dəfə olaraq tələbə elmi-tədqiqat işlərinin müzakirələri təşkil edilmiş, çoxsaylı müəllim və tələbənin yüksək elmi dərəcəli professorların iştirakı və dəyərləndirmələri ilə konfranslar həyata keçirilmişdir.

"I Beynəlxalq Tibbi Forum"un Naxçıvan şəhərində keçirilməsi muxtar respublikanın turizm potensialının təbliği, eləcə də regionun tərəqqisi üçün mühüm amil olan ictimai-siyasi sabitliyə əsaslanan inkişaf strategiyasının uğurlu nəticələrinin tanıdılması baxımından xüsusi əhəmiyyət daşımışdır. Ən yüksək səviyyədə təşkil olunan forumda dünya təcrübəsindən səmərəli surətdə faydalanmaqla problemlərin həllinə yönəlmiş birgə səylər, yüksək elmi və elmi-təcrübi əhəmiyyətə malik olmaqla azərbaycanlı tibbi mütəxəssislərin, eləcə də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi professor-müəllim heyətinin xarici həmkarları ilə əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirərək, aktual mövzularda fikir mübadilələri ilə faydalı tərəfdaşlıqlar üçün yeni imkanlar yaratmışdır.

# "MİSSİYA"






## Sözün yaratdığı PORTRET

Heydər Əliyev o fenomenal şəxsiyyətlərdəndir ki, fəaliyyət arealı, keçdiyi həyat yolu və bu yolun sosial-siyasi məcmusu ancaq müasirlərini deyil, gələcək nəsilləri də özünə çəkib, çəkəcək və bu fəaliyyətin məzmununu dərindən öyrənmək tələbatı yaradacaq.

Bu, ancaq 1923-cü ildə Naxçıvanda, çoxuşaqlı ailədə doğulub boya-başa çatan, həyat yolunu müəyyənləşdirən, zəngin olduğu qədər də parlaq ömür missiyasını Vətəninə və xalqına xidməti ilə Ümummilli Lider səviyyəsinə qədər yüksələn şəxsiyyətin cazibəsi ilə izah olunmur.

Bu, təkcə bir əsrdə, müxtəlif zaman və məkanlarda dəfələrlə soyqırımına və deportasiyalara məruz qalan, Rusiya İmperiyasının, həmçinin ideoloji antaqonizmlərə baxmayaraq, imperiya ambisiyalarına görə onun xələfi hesab edilən SSRİ-nin dağılması ərəfəsində öz dövlət müstəqilliyini bərpa etmiş xalqın tarixinə daha yaxından bələd olmaq istəyindən bəhrələnən təbii maraqdan yaranan tələbatdır.

Ona görədir ki, illər ötdükcə bütün zamanların nadir şəxsiyyəti Ümummilli Liderimizi, onun unikal, parlaq dövlətçilik məharətini, siyasi uzaqgörənliyini öyrənən gəncliyimiz üçün Azərbaycan dili və ədəbiyyatının, incəsənət və mədəniyyətinin hamisi olan Heydər Əliyevin irsi xüsusilə cəlbedici olacaqdır.

Ümummilli Liderimiz bütün məsələlərə, o cümlədən Azərbaycan dilinin və ədəbiyyatının öyrənilməsi məsələsinə tarixi bağlılıq və ənənəvilik prinsipinin prizmasından baxırdı. O, hesab edirdi ki, gələcək inkişafın yolu məhz həmin prizmalar üzrə baxışlardan keçir.

Heydər Əliyev cəmiyyətdə gedən inkişaf prosesində fəlsəfənin əsas prinsiplərinin necə ehtiva olunduğunu görür, müxtəlif sistemlərin daxili hərəkət və inkişaf mexanizmlərini proqresin başlıca mənbəyi hesab edirdi. Buna görədir ki, Ümummilli Lider fəaliyyətinin bütün məqamlarında qaçılmaz ziddiyyətlərin daim aradan qaldırılmasını, azından minimum səviyyəyə endirilməsini ən optimal variantlardan biri sayır və bununla bağlı baxışlarını bölüşürdü.

Bu, cəmiyyəti ancaq evolyusiya ilə proqresə yönəltmək yolunun maarifçilikdən keçməsini şərtləndirən ən klassik formuladır.

Bu, həmin fəlsəfi sistemlər toplusunun formalaşdırdığı dünyagörüşün nəticəsi idi ki, XX əsrin 70-ci illərindən Heydər Əliyevin şəxsində dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

Hesab edirik ki, təcrübəli müəllim olmaqla bərabər, həm də bugünkü Azərbaycan dilçilik məktəbinin məhsuldar nümayəndələrindən biri olan filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın Ümummilli Liderimizin çoxşaxəli fəaliyyətində konkret bir sahəni - böyük dövlət adamının Azərbaycan dilinin qorunması və inkişafı, ədəbiyyat və incəsənətə, elə həmin kontekstdən, ədəbiyyat və incəsənət xadimlərinə diqqət və qayğısı, gəncliyin hərtərəfli şəxsiyyət kimi formalaşması işində mühüm yerlərdən birini tutan təhsilə strateji məsələ kimi baxmasını şərtləndirən amilləri araşdırmaya cəlb etməsi başadüşüləndir. Mahirə Hüseynovanın dərin təhlilə əsaslanaraq çıxardığı nəticələr buna görədir ki, inandırıcıdır. "Missiya" kitabının hər bir səhifəsi üçün xarakterik olan bu inandırıcılıq onun oxucularının təsəvvüründə Heydər Əliyevin dolğun portretini yaratmağa müvəffəq olur.

Müəllif sadəcə olaraq, tədqiqata cəlb etdiyi, zamanında aktual göründüyü kimi, bu gün, elə, sabah da aktual olacağı şübhə doğurmayan faktları təqdim edir. Kitabı oxuduqca, bir neçə illik gərgin zəhmətin, Ümummilli Liderin 32 illik çıxış və məruzələrinin, məqalə və müsahibələrinin dönə-dönə, diqqətlə araşdırılması və Mahirə Hüseynovaya Ulu Öndərin dövlətçilik fəlsəfəsini dərindən dərk etmək imkanı verdiyinə əmin olursan.

Tarixdə həmişə belə olub, mənsub olduğu xalqın taleyində söz sahibi olanlar, onu zamanın ağır sınaqlarından çıxaran şəxsiyyətlər illər keçəndən, həmin təlatümlü və taleyüklü məqamlar adlayandan sonra həqiqi qiymətlərini alırlar. Bu qiymətdə o şəxsiyyətlərin fəaliyyət miqyası ilə yanaşı, həmin fəaliyyətin nəticələri, mövcud ictimai-siyasi vəziyyətin dəyişilməz kimi görünən məcrasının istiqaməti bir daha bəlli olur. Buna görədir ki, filologiya elmləri doktoru Mahirə Hüseynovanın tədqiqata cəlb etdiyi sahələr üzrə təqdim olunan statistik məlumatların arxasında böyük dövlət adamının gərgin fəaliyyəti aydın görünür.

O fəaliyyətin və millətin gələcəyi qarşısındakı şəxsi məsuliyyətin, azərbaycançılıq strategiyasının parlaq nümunələri Ümummilli Liderin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlişinin ilk aylarında açıq-aydın görünür. Bu, gəncliyin formalaşmasında, cəmiyyətin mütərəqqi istiqamətdə köklənməsində ədəbiyyatın və ədəbiyyat xadimlərinin oynadığı, oynaya biləcəyi rola verilən qiymətdə özünü göstərir. Bu cəhətdən Heydər Əliyevin gəncliyin tərbiyəsi ilə bağlı dediyi ibrətamiz fikirləri xatırladan müəllif ancaq böyük siyasətçi və dövlət adamının deyil, həmçinin oxucusunun təsəvvüründə gələcəklə bağlı narahatlığını ifadə edən mütəfəkkirin dolğun obrazını canlandırır: "Onun qayğısına qalınmalıdır ki, insan-cəmiyyətin 20 il əvvəlki, küçə- bu günkü, məktəb- 20 il sonrakı tələblərə cavab versin".

Buna görədir ki, müəllif Heydər Əliyevin 1972-ci ilin iyun ayında yazıçılarla görüşündə onları cəmiyyət qarşısında məsuliyyətə səsləyən fikrinin üzərində məxsusi dayanır: "Yazıçılarımız öz sələflərinin işini davam etdirməlidirlər".

Bu, geniş erudisiyanın və zəngin dünyagörüşün ədəbiyyat qarşısında dayanan başlıca vəzifələrin nədən ibarət olduğu ilə bağlı çıxarılan nəticədir. Ümummilli Liderin nümunə kimi göstərdiyi sələflər Azərbaycanın ictimai məfkurəsinin sərhədlərini göstərən, xalqı ətrafda baş verən proseslərə qoşulmağa imkan verməyən ətalətdən xilas olmağa çağıran Mirzə Fətəli Axundov, milli hisslərin milli şüura çevrilməsi üçün yollar axtaran və buna təşviqin yollarından birini milli mətbuatın yaranmasında görən Həsən bəy Zərdabi, "göz yaşları içindəki qəhqəhələr"lə xalqını cəhalətdən uzaqlaşdırmağa çalışan Cəlil Məmmədquluzadə, "qanma!"- deyilərkən, "Məni məzur tut, böyləcə təklifi unut. Olurmu insan olmaq və qanmamaq?!"- sualını verən Mirzə Ələkbər Sabir, komediyaları və felyetonları ilə insanlarımızı yeniliyə səsləyən Üzeyir Hacıbəyov, 20-21 yaşlı Qori Müəllimlər Seminariyasının məzunu, milli fəlakətlərimizin başlıca hərəkətverici qüvvəsini "Nadanlıq"da göstərən Nəriman Nərimanov və digər parlaq şəxsiyyətləri idilər.

Ümummilli Lider öz müasiri olan yaradıcı insanları böyük məktəbin ənənələrini davam etdirməyə səsləyirdi. Bu, böyük vətənpərvərin Azərbaycanda istər birinci, istərsə də ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra, dövlət müstəqilliyinin daha kövrək məqamlarında, ərazisinin 20 faizindən çoxunun Ermənistan silahlı qüvvələrinin işğalında olduğu, ölkə əhalisinin 1 milyondan artıq nəfərinin məcburi köçkünə çevrildiyi və ancaq iqtisadi problemlər yaşamadığı zamanlarda vaxt tapdığı təxirəsalınmaz problemlərdən biri kimi qaldırdığı məsələlərdən idi. Bunun hansı zərurətdən yarandığını Ümummilli Liderin 1995-ci il aprel ayının 16-da ziyalılarla görüşündə bir daha xatırlandığına diqqət çəkən Mahirə Hüseynova həmin görüşdəki çıxışın üstündə dayanır: "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır, şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var, ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir".

"Missiya" müəllifi parlaq zəka və dərin təfəkkürün mahiyyətindən doğan fikirləri qırmızı xətlə təqdim etməyə xüsusi önəm verir. Onun böyük zəhmət və məsuliyyət, gərgin əməklə seçdiyi sitatlardan yerli-yerində istifadəsi buna görədir də, kitabın əsas qəhrəmanı Heydər Əliyevin ürək yanğısı böyük dövlət xadiminin portretində əsas ştrixlərdən biri kimi yadda qalır. Mahirə Hüseynova hər məqamda öz yazı manerasına sadiqdir və bu manerada seçilmiş fikirləri ifadə edən sözlər rəssam akvarelinə bənzəyir. Müəllif milli psixologiya, milli ideologiyanın formalaşmağa başlamağının, bir sistem şəklində olmadığını bəyan edən Ümummilli Liderin mövcud vəziyyəti görüb və qiymələndirən, yaranmış situasiyada ən optimal qərarlar qəbul edən siyasətçinin obrazını da seçdiyi fikirlərlə təqdim edir: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərəcək başqa bir vasitə yoxdur".

"Missiya" müəllifinin portret cizgilərini təqdim etdiyi Heydər Əliyev obrazının oxucular üçün tanış və doğma olduğunu bilib də, istedadın və analitik təfəkkürün açdığı mənzərələrin fonunda yeni ştrixlərində təqdim olunan rəhbərin özününəməxsusluğu ilə diqqəti çəkən keyfiyyətləri qabarıqdır. Bu cəhətdən Mahirə Hüseynovanın 1995-ci il fevralın 5-də Rüstəm Mustafayev adına İncəsənət Muzeyində hüdudsuz görünən istedadı ilə sərhədlər tanımayan, öz parlaq və ecazkar musiqisi ilə xalqını və Azərbaycanı təmsil edən bəstəkar Arif Məlikovun müəllif gecəsində Heydər Əliyevin çıxışını təhlil etməsi müəllifin maraqlı yaradıcılıq priyomlarından biri kimi diqqəti cəlb edir. Müəllif oxucusunun diqqətini dünya siyasi elitasının tanıdığı və birmənalı qəbul etdiyi dövlət xadiminin geniş dünyagörüşü, erudisiyası ilə bərabər, xalqını və onun keçmişini, min illər ərzində yaratdığı mədəniyyət nümunələrini nə qədər dərindən sevdiyinə yönəldir: "Azərbaycanın musiqisi, xüsusən professional musiqisi böyük tarixə malikdir. Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli və başqaları ilə bərabər, bu məktəbin yetişdirməsi olan görkəmli sənətkar Arif Məlikov".

Bu, xalqının adı ilə dünya mədəniyyətinə töhfələr vermiş insanlarımıza, onların istedadına ifadə olunan hörmət və ehtiramdır. Daha sonra Sovet Sosialist Respublikaları İttifaqının, SSRİ-nin rəhbərliyində təmsil olunmaqla bərabər, ancaq ucsuz-bucaqsız kimi görünən ölkədə deyil, dünyanın siyasət kuluarlarında "Kremlin ən parlaq ulduzu" adlandırılan Heydər Əliyev Moskvada özünün də iştirakçısı olduğu bir hadisəni yada salır: "1986-cı ildə böyük tədbir vardı. Təsəvvür edin, mən nə qədər sevinirdim ki, Moskvada, Rusiyanın mərkəzində, zəngin tarixə malik olan Böyük Teatrın səhnəsində belə bir böyük tədbirdə, teatr mövsümünün açılışında Arif Məlikovun "Məhəbbət əfsanəsi" əsəri göstərilir. Mən orada həm sevinir, həm həzz alır, həm də fəxr edirdim".

"Missiya"da yer alan oxşar səhnələr kifayət qədərdir. Bu səhnələrin hər biri müəllifin təhlilləri ilə müşayiət olunaraq oxucusunun Heydər Əliyev şəxsiyyətinin müəyyən qatlarına nüfuz etməsinə imkan yaradır, obrazın bütövlüyü, ən çətin və mürəkkəb məqamlarda optimal qərarlar qəbul etməsini şərtləndirən amillərin geniş spektri görünür. Kitabda belə məqamların biri Ümummilli Liderin şəxsi və siyasi həyatının növbəti burulğanlı anlarında təqdim olunur. Bu, keçmiş SSRİ-nin sonuncu rəhbəri, öz avantürist "yenidənqurma"sı ilə ictimai, daha sonra siyasi təlatümlərin kinetik enerjisi funksiyasını yerinə yetirən Mixail Qorbaçovun intriqaları nəticəsində SSRİ Nazirlər Soveti sədrinin I müavinliyi və Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosu üzvlüyündən istefa verəndən sonra Azərbaycanın o zamankı siyasi rəhbərliyi tərəfindən qurub-yaratdığı Bakı şəhərində yaşamaq istəyi normal qarşılanmayan, bu səbəbdən Naxçıvana sığınan Heydər Əliyevin tarixi köklərə nə qədər bağlı olduğunu yenidən təsdiq edir. Müəllif həmin epizodu dünya miqyaslı siyasətçinin Naxçıvan Ali Məclisinin sədri olduğu illərdə, 1992-ci il oktyabrın 23-də təkcə Azərbaycan deyil, dünya ədəbiyyatının azman nümayəndələrindən olan Hüseyn Cavidin anadan olmasının 100 illiyi ilə bağlı tədbirdə müşahidə edir: "Həyat nə qədər maddi cəhətdən ağır olsa da, insan mənəviyyatı insanı yaşatmağa, mübarizəyə və bu çətinliklərin öhdəsindən gəlməyə yardım edir. Bu mənəviyyat mənbəyi də bizim mədəniyyətimizdədir, bizim ali köklərimizdədir, bizim əbədiyyətimizdədir, bizim mənəviyyat, mədəniyyət xəzinəmizdədir".

Mahirə Hüseynova hər məqamda Ümummilli Liderin mənəvi normalara nə qədər sadiq olduğunu, həyatının hər məqamında o normaları özünün yol xəritəsində başlıca faktor hesab etdiyini görür. Bu, keşməkeşli həyat yolu keçən, dəyişən ictimai-siyasi formasiyalarda millətinə və Vətəninə sevgisi dəyişməyən Nəriman Nərimanova münasibətində daha qabarıq müşahidə edilir. Müəllif Heydər Əliyevin Nəriman Nərimanova münasibətində Şərqin ilk kommunist rəhbərinə münasibətinə deyil, onun xalqına xidmət etmək istəyinə daha çox hörmət etdiyini əsaslandırmaq üçün kitabında Qori Müəllimlər Seminariyasının məzunu, həyatını dəyərlər naminə yaşayan, Azərbaycan İnqilab Komitəsinin rəhbəri, Xalq Komissarları Sovetinin ilk sədri, ruhən beynəlmiləlçi olsa da, millətini sevdiyinə görə, millətindən olanların millətçi adlandırdıqları, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri olan, Mixail Kalininin dediyi kimi, "Kreml divarları yanında əbədi uyuyacaq ilk Şərq nümayəndəsi"nə geniş yer ayırır.

Oxucu burada Heydər Əliyevin əlavə ştrixlərlə canlanan portreti ilə üzbəüz qalır və vəfatından 3-4 il sonra həyatının müəyyən hissəsi Azərbaycanla bağlı olmuş Sergey Kirov, Bakı şəhərinə rəhbərlik edən Levon Mirzoyan, artıq Kreml siyasi elitasına daxil ola bilmiş Anastas Mikoyan, Azərbaycana rəhbərliyinin ilk illərini yaşayan Mircəfər Bağırov və digərlərinin rəyi ilə ona vurulmuş "Nərimanov millətçiliyi"nin mif olduğunu sübut edən Ümummilli Liderin daşlaşmış doğmalara qarşı üçillik mübarizəsinin şahidi oluruq. Həmin anları müəlllif Heydər Əliyevin xatırladığı kimi təqdim edir: "İki dəfə Suslovun (SSRİ-də ideoloji sahənin birmənalı rəhbəri), Brejnevin (SSRİ-nin rəhbəri) yanına getdim, ancaq onlara Nərimanov barədə başqa informasiyalar vermişdilər. Nə yubileyi keçirməyə, nə də abidəni qoymağa imkan vermirdilər. Çalışdım, mübarizə apardım, neçə adamı inandırdım və axır ki, istəyimə nail oldum. MK-da Nəriman Nərimanovun 100 illik yubileyinin keçirilməsinə dair qərara nail oldum, "Pravda" qəzetində Nəriman Nərimanovun yubileyinə həsr olunmuş böyük məqaləm getdi. Nəriman Nərimanovun yubileyini böyük təntənə ilə keçirdik, Bakıda möhtəşəm abidəsini ucaltdıq".

Həmin anların canlı ovqatını yaratmaq, Nəriman Nərimanovun o zamanki reabilitasiyasının əhəmiyyətini göstərmək üçün müəllifin Nərimanovun "Oğlum Nəcəfə məktub"unu, əslində, gələcək nəsillərə vəsiyyətini təhlil etməsi Ümummilli Liderin nəyə görə öz siyasi karyerasını riskə qoyaraq görkəmli ədəbiyyat və dövlət xadiminin müdafiəsinə qalxmasını göstərmək üçün yazı manerasından biri kimi maraqlıdır.

Mahirə Hüseynovanın "Missiya" kitabını oxuduqca müəllifin həyat missiyasında gənclərin və ancaq gənclərin deyil, gələcəyimizin taleyi hesab olunan insanların hərtərəfli yetişdirilməsi işində məktəbin məsuliyyətini xatırladan Ulu Öndərin müəllim əməyini yüksək qiymətləndirdiyinin dəfələrlə şahidi oluruq. 1982-ci ilin sonlarından SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov. İKP MK Siyasi Bürosunun üzvü kimi SSRİ-də təhsil sahəsinə rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə 1983-cü ildən başlayan məktəb islahatından söhbət açılır: "Mən bütün Sovet İttifaqı üzrə məktəb islahatını hazırlayan komissiyanın sədri idim. Sovet İttifaqı kimi böyük bir dövlətin maarif, təhsil sahəsində islahatlarının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edirdim. Ona görə də məktəb işi, müəllimlik sənəti mənim üçün ən doğma işdir. Müəllimlik sənətini, müəllimin işini, zəhmətini həmişə yüksək qiymətləndirmişəm".

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci mərhələdə fəaliyyətininin ən mühüm istiqamətlərindən biri, bəlkə də birincisi, onun Azərbaycan dilinə müstəsna sevgisinin təzahürü olan qayğısı, xalqının mənliyinin, milli şüurunun, mentalitetinin qorunması sahəsində atdığı addımlardır. Böyük siyasətçi və dövlət adamının şəxsi nümunəsində açıq-aydın görünən o möhtəşəm missiyanı özü belə ifadə edir, müasiri olan ziyalılara, xalqının gələcəyi üçün məsuliyyət daşıyan və daşımalı olan kəslərə üz tutaraq deyirdi: "Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəli getməsinə xidmət göstərirdi".

"Missiya"da həmçinin Ümummilli Liderin Azərbaycan dilinin sağlamlığının qorunması, onun inkişaf strategiyasının uzunmüddətli bir zaman üçün hesablanaraq dövlət siyasəti səviyyəsinə qaldırılması məsələsinə geniş yer ayrılıb.

Əlbəttə, söhbət ondan getmir ki, Heydər Əliyev hakimiyyətə gələndən az sonra indiki Bakı Dövlət Universitetinin 50 illik yubileyindəki çıxışı ilə respublikada yeni ənənənin əsasını qoydu. 1973-cü ildə ali məktəblər üçün dərs vəsaiti kimi nəzərdə tutulan "Müasir Azərbaycan dili. Morfologiya" kitabının Azərbaycan SSR Dövlət Mükafatına layiq görülməsi, həmçinin bu sahədə kompleks tədbirlərin aparılması uzunömürlü strategiyadan xəbər verirdi. Ona görə də 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiya layihəsi hazırlanaraq ümumxalq müzakirəsinə verilərkən diqqətli müşahidəçilər o strategiyaya aid müəyyən elementlərinin bu layihədə yer alacağına əmin idilər.

Müzakirələr bitdikdən sonra ölkənin Ali Sovetinin sessiyasında Konstitusiya Komissiyasının Sədri Heydər Əliyev "Azərbaycan Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzə ilə çıxış etdi. Məruzədə diqqətçəkən məqamlardan biri ondan ibarət idi ki, Əsas Qanunun təməl prinsipləri arasında respublikanın milli, tarixi xüsusiyyətləri ilə bərabər, Azərbaycan dilinin dövlət dili statusunun da yer alması heyrətamiz faktlardan biri oldu. Ümummilli Liderin şəxsi təşəbbüsü və qətiyyətli, inandırıcı məntiqi nəticəsində yeni Konstitusiyanın 73-cü maddəsində yazılırdı: "Azərbaycanın dövlət dili Azərbaycan dilidir".

Ölkənin Konstitusiyasında ana dilinin dövlət dili kimi təsbit olunması təkcə Sovet İttifaqında deyil, elə ölkə daxilində də ildırım effekti kimi yaratdı. Xatırlatmaq yerinə düşər ki, SSRİ respublikalarının böyük əksəriyyəti üçün əlçatmaz görünən bu hadisə bilavasitə Heydər Əliyev cəsarətinin gerçəkliyi kimi tariximizə yazıldı. Aradan 17 il keçəndən sonra, 1995-ci ilin oktyabrında, müstəqil Azərbaycan dövlətinin Prezidenti Heydər Əliyev artıq suveren dövlətin, Azərbaycan Respublikası Konstitusiya Komissiyasının Sədri kimi, komissiya iclaslarının birində tarixə dönən o günləri yada salır, həmin 73-cü maddəni xatırladırdı: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Orada izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq".

"Missiya"da həmçinin mahir siyasətçi və dövlət adamının müxtəlif zamanlarda keçmiş SSRİ-nin ən oxunaqlı, yüksək tirajlı kütləvi informasiya vasitələrindəki yazılarına, verdiyi müsahibələrdə ədəbiyyatın böyük missiyası ilə bağlı baxışlarına geniş yer verilir. Bu cəhətdən Ümummilli Liderin "Qoy ədalət zəfər çalsın" sərlövhəsi ilə "Literaturnaya qazeta"nın 18 noyabr 1981-ci il tarixli nömrəsində dərc olunan müsahibəsinə diqqətin yönəldilməsi də maraqlıdır. Jurnalistin "Heydər Əliyeviç, axı məlum bir aforizmdə "Tanrı dahilərin övladlarını dahi xəlq eləməyib" deyilsə də, ziyalı nəsilləri həmişə olmuşdur və olacaqdır. Axı, bizdə ziyalı nəsilləri indi-indi çoxalmağa başlayıb. Ailənin mənəvi marağı mühitində böyüyən uşağın öz babalarının, atalarının işini davam etdirməsi məgər pisdir?" - sualına Heydər Əliyevin cavabı həm də ona görə maraqlıdır ki, həmin cavab bütün zamanların ictimai-siyasi formasiyasından asılı olmayaraq bütün cəmiyyətlər üçün aktual olaraq qalacaqdır. O suala cavabında Ümummilli Lider siyasətçi, dövlət xadimi olmaqla yanaşı, həm də filosofdur və onun ziyalı mühitində hansı məqamları önə çəkdiyi açıq- aşkar görünür: "Biz sizinlə müxtəlif şeylərdən danışırıq. Gəlin müzakirəmizin mövzusunu dəqiqləşdirək. Ziyalını səciyyələndirən ən əvvəl nədir? Ali təhsil diplomu? Elmlər namizədi, doktorluq diplomu? Zənnimcə, yox. Ziyalının başlıca keyfiyyəti cəmiyyətə fədakarlıqla xidmət etməkdir".

"Missiya" kitabını Heydər Əliyevin ömür yolu haqqında mükəmməl əsərlərdən biri hesab etmək olar. Səmimi etiraf edək ki, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın əsərində Ümummilli Liderin istər Azərbaycana birinci rəhbərlik dövrü, istərsə də Qurtuluşa gedən yolu inandırıcı faktların dili ilə kifayət qədər canlı təqdim edilmişdir. Kitabdakı ayrıca bölmə, Ulu Öndərin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildən fəaliyyətindəki həyati əhəmiyyətli işlərin xatırlanması isə sələflər və xələflər arasındakı tellərin möhkəm bağlılığından xəbər verir.

O bağlılığın təzahürlərindən birini nəinki Azərbaycan xalqı, bütün dünya 2020-ci il noyabr ayının 8-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olarkən gördü. Ümummilli Liderin xatirəsinə ehtiramlarını ifadə etdikdən sonra Şəhidlər xiyabanına gələn Prezident İlham Əliyev elə buradan xalqına müraciət etdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

**Firuz NOVRUZOV**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

# Heydər Əliyev adına Hərbi İnstitut

2022-2023-cü tədris ili üçün aşağıdakı mülki vakant vəzifələrə müsabiqə

## ELAN EDİR

**İdarəetmə və informasiya texnologiyaları kafedrası**

*1. İdarəetmə və sistem mühəndisliyi silsiləsi:*
Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 6 (altı) yer
Müəllim - 6 (altı) yer
(İqtisadiyyat sahəsi üzrə - 3 yer)

*2. İnformasiya texnologiyaları silsiləsi:*
Professor - 1 (bir) yer
Dosent - 4 (dörd) yer
Baş müəllim - 4 (dörd) yer
Müəllim - 4 (dörd) yer
(Kompüter texnologiyaları və proqramlaşdırılması sahəsi üzrə - 1 yer)

**Texniki fənlər kafedrası**

Kafedra müdiri (fəlsəfə doktoru və ya elmlər doktoru) - 1 (bir) yer

*1. Ümumi texniki fənlər silsiləsi:*
Dosent - 1 (bir) yer
Baş müəllim - 3 (üç) yer
Müəllim - 2 (iki) yer

*2. Tətbiqi mexanika silsiləsi:*
Professor - 1 (bir) yer
Baş müəllim - 6 (altı) yer
Müəllim - 2 (iki) yer

**Elektronika və telekommunikasiya kafedrası**

*1. Elektronika silsiləsi:*
Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 3 (üç) yer

*2. Telekommunikasiya silsiləsi:*
Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 1 (bir) yer

*3. Radiotexnika silsiləsi:*
Dosent - 1 (bir) yer
Baş müəllim - 4 (dörd) yer

**NATO/Sülh naminə tərəfdaşlıq və Humanitar fənlər kafedrası**

*1. Humanitar və sosial fənlər silsiləsi:*

Dosent - 4 (dörd) yer (Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənni üzrə - 3, Azərbaycan tarixi fənni üzrə - 1)
Baş müəllim - 6 (altı) yer (Azərbaycan Respublikasının Konstitusiyası və Hüququn əsasları fənni üzrə - 1, Azərbaycan dili fənni üzrə - 3, İdarəetmə psixologiyası fənni üzrə - 2)
Müəllim - 10 (on) yer (Azərbaycan tarixi fənni üzrə - 3, Azərbaycan dilində işgüzar və Akademik kommunikasiya fənni üzrə - 1, Bölmələrin idarə edilməsi fənni üzrə - 2, Azərbaycan dili fənni üzrə - 2, Hərb tarixi fənni üzrə - 2)

*2. NATO/Sülh naminə tərəfdaşlıq və tərbiyəvi işin təşkili silsiləsi:*

Müəllim - 3 (üç) yer
(Politologiya və beynəlxalq münasibətlər üzrə)

**Fundamental və təbiət fənlər kafedrası**

*1. Ali riyaziyyat silsiləsi:*

Professor - 1 (bir) yer
Dosent - 2 (iki) yer
Baş müəllim - 5 (beş) yer
Müəllim - 3 (üç) yer

*2. Fizika silsiləsi:*
Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 2 (iki) yer
Müəllim - 3 (üç) yer

*3. Kimya silsiləsi:*
Dosent - 1 (bir) yer
Baş müəllim - 3 (üç) yer

**Xarici dillər kafedrası**

*1. İngilis dilli silsiləsi:*

Baş müəllim - 6 (altı) yer
Müəllim - 10 (on) yer

*2. Rus dilli silsiləsi:*

Baş müəllim - 4 (dörd) yer
Müəllim - 5 (beş) yer

**Aerokosmik mühəndisliyi kafedrası**

Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 4 (dörd) yer

**Hərbi dəniz fənləri kafedrası**

Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 1 (bir) yer

**Gəmiçilik sistemləri kafedrası**

Professor - 2 (iki) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 1 (bir) yer

**MÜSABİQƏNİN ŞƏRTLƏRİ:**

**a)** Professor vəzifəsini tutmaq üçün müsabiqədə professorlar və elmlər doktorları iştirak edə bilərlər.
**b)** Dosent vəzifəsini tutmaq üçün müsabiqədə professorlar, dosentlər, elmlər doktorları və elmlər namizədləri (fəlsəfə doktorları) iştirak edə bilərlər.
**c)** Baş müəllim vəzifəsinə elan olunmuş müsabiqədə bir qayda olaraq ən azı **3 illik** elmi-pedaqoji stajı olan elmlər namizədləri (fəlsəfə doktorları) və ya ən azı **5 illik** elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan yüksəkixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.
**d)** Müəllim vəzifəsinə müsabiqədə elmi-pedaqoji və ixtisası üzrə ən azı **1 il** iş stajı olan elmlər namizədləri (fəlsəfə doktorları), eləcə də ən azı **3 il** elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.
**e)** Müsabiqədə iştirak etmək istəyən hər bir şəxs rektorun adına **ərizə** ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

1. Kadrların şəxsi qeydiyyat vərəqəsi;
2. Ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti (notarial qaydada təsdiq olunmuş)
3. Tərcümeyi-hal;
4. Dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq olunmuş siyahısı (müdafiəyə qədər və sonra)

*Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan olunduğu gündən başlayaraq 30 gündür.*

**Tədris Azərbaycan dilindədir**

**Ünvan:** Bakı şəhəri, general-mayor Polad Həşimov küçəsi №1
Heydər Əliyev adına Hərbi İnstitut

**İndeks:** AZ 1018.

**Əlaqə telefon:** (070) 327-08-76

**REKTORLUQ**

# Etibarsız sayılır

**Kirovabad Baza İnşaat Texnikumu** tərəfindən 1990-cı ildə Antonova Radmilla Telman qızına verilmiş MT-I-278966 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qarğalıq kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Mustafayev Hüseyn Elçin oğluna verilmiş B-721816 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişlidə 1 nömrəli** Çadır şəhərciyində yerləşən Cəbrayıl Müstəqil orta məktəbi (indiki Cəbrayıl rayon 8 nömrəli tam orta məktəb) 1995-ci ildə bitirmiş Həşimov Eldəniz Fərmayıl oğlunan verilmiş (nömrəsiz) tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Ələkli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Eyvazova (Salahova) Turanə Həsənqulu qızına verilmiş B-243243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** Beynəlmiləl 8 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Babayeva Natəvan Abbas qızına verilmiş A-083867 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 227 nömrəli tam orta məktəbi 25.06.2011-ci ildə bitirmiş Sadıqlı Mehri Mehdi qızına verilmiş A-014826 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Əliyeva Pakizə İsrayıl qızına verilmiş AT-001250 nömrəli fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Texnikumun Quba filialı** tərəfindən 1993-cü ildə Kazımova (Səfərova) Lalə Yadulla qızına verilmiş AB-II-003725 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Müstəqil Azərbaycan Universiteti** tərəfindən 2004-cü ildə Babayev Tural Rahib oğluna verilmiş A-023454 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2011-ci ildə İsmayılov Emin Fəxrəddin oğluna verilmiş B-207003 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi (keçmiş 5 nömrəli dəmir yol orta məktəb) 22.06.1999-cu ildə bitirmiş Atamoğlanov Vüqar Səfər oğluna verilmiş 264615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbin IX sinfini 29.06.2018-ci ildə bitirmiş Zahidov Telman Faiq oğluna verilmiş C-011837 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2001-ci ildə Məmmədova (Çobanova) Nazilə Xankişi qızına verilmiş A-076959 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2009-cu ildə Fəhratov Roman Alı oğluna verilmiş BB-041634 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə Məmmədova (Quliyeva) Nigar Ceyhun qızına verilmiş B-263292 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Heybətova Aynur Bəşir qızına verilmiş A-141743 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Y.Kovalyov adına 229 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Ələkbərova Mehriban Qiyas qızına verilmiş 28\76 nömrəli attestat (əvəzi arayış) itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Yuxarı Qarxun kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Həmidova Rəqsanə Niyaz qızına verilmiş B-486771 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Malbinəsi kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Tofiqli Tofiq Miryusif oğluna verilmiş E-071375 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 4 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Yusifov Mirəsəd Ağalar oğluna verilmiş E-251164 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Miskinli 1 nömrəli kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Nağıyev Şahvələt İsa oğluna verilmiş 625307 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Meşəşambul kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Ramazanova Mədinə Ramazanovnaya verilmiş A-499617 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Şambul kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Hudulova (Xalayeva) Həcər Umuxan qızına verilmiş B-092400 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbini** 1975-ci ildə bitirmiş Əliyeva Gülazər Həsənalı qızına verilmiş Щ-011038 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 219 nömrəli evdə məktəbi 04.07.2014-cü ildə bitirmiş İbrahimov Həsənağa Elxan oğluna verilmiş A-307054 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 18.06.2008-ci ildə bitirmiş Məmmədov Rəşad Rasim oğluna verilmiş B-488939 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Ərəbmehdibəy kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Cavadov Nurlan Niyazi oğluna verilmiş E-115656 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2012-ci ildə Cabbarova Aynurə Şaiq qızına verilmiş AA-010175 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Məktəbi** tərəfindən 2007-ci ildə Əhmədova Afət Aviş qızına verilmiş BB-II-064951 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Təzəkənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Adıgözəlov İsa Müşviq oğluna verilmiş A-067451 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mədəni Maarif Texnikumu** tərəfindən 2003-cü ildə Əliyeva Samirə Əlpənah qızına verilmiş AB-II-086269 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 5 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş İbayeva Sevinc Hidayət qızına verilmiş A-479428 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Çuxuryurd kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Çələbizadə Vüsal Natiq oğluna verilmiş E-523576 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş İsayeva Şəlalə Sabir qızına verilmiş A-046040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Hacıyev Nicat Bəhram oğluna verilmiş B-514167 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**67 nömrəli Orta Texniki Peşə Məktəbi** tərəfindən 1989-cu ildə İskəndərov Tale Zeynalabdin oğluna verilmiş 101864 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (indiki ADNSU) tərəfindən 2008-ci ildə Mustafayev Rəşad Baba oğluna verilmiş B-124119 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 23.06.2010-cu ildə bitirmiş Əhmədova Xumar Ələddin qızına verilmiş B-673109 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5314 **Sifariş** 2103

**Məsul növbətçi:** S.Kərimova

# Dünya dəyişirsə, məktəblər də dəyişməlidir




## Fernando Reimers: “Biz elə insanlar yetişdirməliyik ki, onlar cəmiyyətə töhfə verə bilsinlər”

“Yeni çağırışlar”da növbəti qonaq dünya şöhrətli professor Fernando Reimers olub. Harvard Universitetinin professoru, Qlobal Təhsil İnnovasiyaları Təşəbbüsünün direktoru Fernando Reimers sülh içərisində yaşayaraq dünya vətəndaşı olmaq çağırışı ilə çıxış edib. Belə ki, Təhsil Nazirliyinin dəstəyi və “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən “Yeni çağırışlar” proqramının 25 iyul 2022-ci il tarixində yayımlanan bölümündə Fernando Reimers ilə qlobal təhsil və yeni səriştələr barədə danışılıb.

“T-Network”ün koordinatoru, təhsilin idarə olunması üzrə mütəxəssis Cəfər Mənsiminin təqdimatında proqram Təhsil Nazirliyinin “Facebook” səhifəsi üzərindən Mətin Axundlunun tərcüməsilə Azərbaycan dilində canlı yayımlanıb.

### Qlobal vətəndaşlıq

Aparıcı Cəfər Mənsimi Fernando Reimersin uşaqlar üçün yazdığı “Filomenanın dostları” (Filomena`s Friends) kitabından olan illüstrasiya fonunda qonağı salamlayıb və izləyicilərə təqdim edib. C.Mənsimi bildirib ki, F.Reimers UNESCO-nun Təhsilin Gələcəyi Komissiyasının üzvü olaraq “Gələcəyimizi birgə dizayn etmək” hesabatını hazırlayıb. Dünyanın bir çox məktəblərində istifadə olunan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun kurikulum tərtib edib. Hazırda onun fəaliyyəti təhsildə innovasiya, təhsilin siyasəti, liderliyi və müəllimlərin peşəkar inkişafına yönəlib. O, bu anlayışların uşaqların və gənclərin hərtərəfli inkişafına təsirini öyrənən tədqiqatlar aparır. Həmçinin, Harvard Universitetinin qlobal missiyasının inkişafı üçün çalışır və iqlim dəyişikliyinə yönəlik proqramların effektivliyinin artırılması üzərində işlər aparır. Harvardda bir çox məsləhət şuraları və komitələrin üzvüdür. Rəhbərlik etdiyi Qlobal Təhsil İnnovasiya Təşəbbüsü ölkələrarası tədqiqat və təcrübə əməkdaşlığını əks etdirir. “Qlobal vətəndaşların inkişafı: dünya kursu”, “Gələcəyi daha yaxşı inşa etmək üçün təhsil”, “Pandemiya dövründə məktəb və universitet əməkdaşlığı”, “Təhsil üçün yeni sosial müqavilə: gələcəyimizi birgə dizayn etmək”, “Qlobal dünyada əməkdaşlıq”, “Sinif otaqlarının və düşüncələrin inkişafı üçün 12 dərs” adlı 45 kitabın müəllifi və redaktorudur. 1998-ci ildən Harvard Universitetində işləyən professor daha öncə Dünya Bankında çalışıb.

Aparıcının professora ünvanladığı ilk sual “Sizin fəaliyyətinizə nəzər yetirdikdə ana xətt olaraq qlobal vətəndaşlıq önə çıxır. Nə vaxtdan və necə qlobal vətəndaş olmağa qərar verdiniz?” olub. Fernando Reimers “Yeni çağırışlar” proqramında, qonaq, həmsöhbət olmaqdan məmnunluğunu bildirərək qeyd edib ki, bəşər övladı yaradıldığı andan başlayaraq bütün təkamül boyu öz kimliyinin, mənsubiyyətinin axtarışında olub. Bunu icmaların, ailələrin, kəndlərin, daha sonra qəsəbə və şəhərlərin timsalında misal gətirən qonaq valideynlərinin İspaniyada anadan olaraq Venesuelaya köçdüyünü, özünün isə Venesuelada anadan olub ABŞ-da böyüyüb təhsil aldığını, fransız miqrantlarının təsis etdiyi məktəbdə oxuduğunu, bir çox mədəniyyət və millətlərlə qaynayıb-qarışdığını izləyicilərin diqqətinə çatdırıb. Bundan irəli gələrək F.Reimers bütün həyatı boyu qlobal vətəndaş olmaq hissini özündə yaşadığını deyib.

Təhsil dünyasında təbliğ etdiyi əsas ideya haqqında sualı cavablandıran yazıçı söyləyib: “Biz elə insanlar yetişdirməliyik ki, onlar öz talelərinin, bacarıqlarının memarları olsunlar, öz gələcəklərini qurmaqla yanaşı cəmiyyətə də töhfə verə bilsinlər. Yəni, nə qədər çox dolğun, kamil insanlar olsa, cəmiyyət də bir o qədər xeyirxah və uğurlu nəticələrlə üzləşəcək”.

### Qlobal çağırışlar

“Dünya dəyişirsə məktəblər də dəyişməlidir” deyiminin müəllifi F.Reimers bu sözləri söyləyərkən bir neçə məqamı nəzərdə tutduğunu qeyd edib. O, birinci növbədə, gənclərə yaşadıqları gerçək dünyanı daha yaxşı başa düşmək üçün yardımçı olmağı, onlara dünyada mövcud olan çağırışları anlatmağı tövsiyə edib. İqlim dəyişikliyi, daha ağıllı istehlakçı yanaşmaları, insanların gender, irq, milliyyət və s. mənsubiyyətindən asılı olmayaraq hüquq azadlıqları kimi bir sıra reallıqlar və çağırışlarla artıq təhsil müəssisələrində tanış olmağın, məktəb kurikulumuna daxil edilməsinin vacibliyini qeyd edərək professor şagirdlərdə lazımi bacarıqların formalaşdırılmasının önəminə diqqət çəkib. Fernando Reimers təəssüflə bildirib ki, hazırkı yaşadığımız dövrdə belə bəzi qrup insanlar özlərini digərlərindən daha üstün hesab edir və insan hüquqlarının ancaq onlara aid olduğunu düşünürlər. Dünya şöhrətli professor şagird və tələbələrə düzgün layihə əsaslı təhsil verməklə, doğru yanaşmalardan istifadə etməklə buna qarşı çıxmağa çağırıb, sağlam düşüncəli gələcək nəsil yetişdirməyin mümkünlüyündən danışıb.

Bir meksikalı tələbəsinin həyata keçirdiyi layihəni misal gətirən harvardlı müəllim müəyyən bir problemin həlli yollarını axtaran 14-15 yaşlı şagirdlərin səyi nəticəsində məktəbdə içməli su problemini aradan qaldırdıqlarını, birgə vəsait toplayıb borular, nasos alaraq məktəbə içməli su xətti çəkmələri barədə danışıb. Məktəbin dayanıqlılığını, susuzluq səbəbindən bir çox şagirdin məktəbə gəlmədiyini, həmin məktəbi tərk etdiyini nəzərə alan şagirdlər mövcud problemi aradan qaldırmağa nail olubar. F.Reimers deyib: “Biz şagird və tələbələri lazımi biliklə təmin etdikdə onlar reallıqla nəzəriyyəni qovuşdurur, uzlaşdıra bilirlər və qarşıda duran problemləri həll edirlər”.

### Qlobal təhsil

Fernando Reimers bildirib ki, dünyada cərəyan edən hadisələr həm lokal, həm də qlobal xarakter daşıyır və heç bir lokal hadisə qlobal olmadan ötmür. İqlim dəyişikliyini nümunə göstərən alim heç bir ölkənin qlobal iqlim dəyişikliyindən kənarda qalmadığını söyləyib, ayrı-ayrı ölkələrdə mövcud olan problemlərin dünyanın ümumi problemi olması anlayışını şagirdlərə başa salmağın çox vacib olduğunu bildirib: “Biz istər miqrasiya, istər ticarət və s. reallıq və problemlərin dünyada necə təşəkkül tapdığını görürük. Təhsil bu cür qlobal məsələləri özündə ehtiva etməlidir. Ölkə və millətlərin fərqli cəhətləri vardır. Bu fərqli cəhətləri bir güc kimi görmək, onları bəşəriyyətin faydasına çevirmək lazımdır. Hər bir məktəb də bu missiyanı anlamalıdır ki, əsas vəzifəsi dünyanı qoruya biləcək, qlobal problemləri həll edəcək gənc nəsil yetişdirməkdir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri 2015-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmişdir. Bu məqsədlərin əsas prinsipləri inklüzivlik və dayanıqlılıqdır. Həmin prinsipləri biz gələcək nəslə çatdıra bilsək, dünyanı yaxşılığa doğru apara bilərik”.

Harvardlı professor hesab edir ki, milli kurikulum və qlobal təhsil bir-birini tamamlamalıdır. Şagirdlərə yaşadıqları ölkənin tarixi, coğrafiyası və s. keçilməklə yanaşı çatdırılmalıdır ki, onların ölkəsi də dünyanın bir hissəsidir və bu baxımdan onların dünya tarixi, coğrafiyası, mədəniyyəti haqqında da anlayışları olmalıdır. F.Reimers təəssüflə bildirib ki, bir çox ölkələrdə şagirdlərə bu biliklər aşılanmır, ölkələr vardır ki, şagirdləri BMT-nin nə olduğunu bilmir, onlara bu barədə məlumat verilmir. Qonaq BMT-nin II Dünya müharibəsindən sonra növbəti müharibələrin qarşısının alınması məqsədilə yaradıldığını vurğulayıb, belə bir beynəlxalq insan hüquqları bəyənnaməsinin mövcudluğundan, onun nə üçün qəbul edildiyindən, digər insanların şərəf və ləyaqətinə hörmət etmək, hüquqlarına toxunmamaq kimi anlayışlar haqqında bir çox insanların məlumatsız olduğunu söyləyib. Qonağın fikrincə, milli və qlobal təhsil bir-birini istisna etməməli, əksinə tamamlamalıdır.

### Dünyanı yaxşılaşdırmağı öyrənmək

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq tələbələrilə birgə kurikulum hazırladığını izləyicilərin diqqətinə çatdıran Fernando Reimers ilkin olaraq kurikulumu məzun olmağa hazırlaşan yuxarı sinif şagirdləri üçün nəzərdə tutduğunu bildirib. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri haqqında şagirdlərin məlumatlandırılmasının əsas məqsəd olduğunu vurğulayan professor qeyd edib ki, sonradan həmin kurikulumu tək yuxarı sinif şagirdlərinə deyil, 1-dən 12-ci sinfə qədər nəzərdə tutulan kurikulum halına salıb, bələdçi təlimat sənədinə çevirib.

Professor onu da qeyd edib ki, tələbələrlə birgə hazırladığı “Dünyanı yaxşılaşdırmağı öyrənmək” (Learning to Improve the World) kitabı ilkin olaraq 20 min nüsxədə çap edilib. Lakin müəllimlər təlim keçmədikləri üçün bu kurikulumu tədris etməklə bağlı müəyyən çətinlik çəkmələri haqqında rəy bildirdikdən sonra, F.Reimers 30 tələbəsi ilə birlikdə bu kitabın daha sadələşdirilmiş formasını - “Dünyanın yaxşılaşdırılması üçün 60 dərslə şagirdləri təkmilləşdirmək” (Empowering Students to Improve the World in Sixty Lessons) kitabçasını hazırlayıb. Bu kurikulum 1-dən 12-ci sinfə qədər şagirdləri əhatə edir və hər sinifə 5 dərs nəzərdə tutulur, bu da 60 dərs edir. Kitabın çapında məqsəd şagirdlərə və müəllimlərə dünyanı dəyişməyə, onun daha inklüziv edilməsinə, dayanıqlı inkişafına öz töhfəsini verməkdir. Yəni, bu kitab müəllimlərin təlimatlandırılması üçün bir rəhbər sənəddir. Müəllimlər bu kitabı oxuyaraq dərsi hansı formada çatdıracağını aydınlaşdıra, hətta özləri kurikulum hazırlaya bilərlər. Yazıçı bildirib ki, bu kitab oxucular tərəfindən çox müsbət qarşılanıb və həqiqətən də bir bestsellerə çevrilib, ərəb, türk, ispan, çin və s. dillərə tərcümə olunub.

### Uğurlu məktəb modeli

Gələcəyin təhsil modelinin indiki təhsil modelindən nə ilə fərqlənməsi ilə bağlı sualı cavablandıraraq professor qeyd edib ki, gələcək haqqında danışarkən tələbələrə kim olduqlarını, bu dünyada təyinatlarının nədən ibarət olduğunu və s. suallara cavab tapmasında kömək etmək gərəkdir. İstənilən təhsil sistemi şagird və tələbələrə özünü dərk etməkdə, məqsədlərini kəşf etməkdə, insan hüquqlarını başa düşməkdə, daha da inklüziv cəmiyyətin qurulması üçün onlara yol göstərməlidir. Bu baxımdan tədris cansıxıcı deyil, coşqulu, həyəcanverici olmalıdır.

Cəfər Mənsimi F.Reimersə bir çox qonaqların məktəbin cansıxıcı olduğunu vurğuladıqlarını deyib. Bu məsələyə münasibət bildirən harvardlı müəllim müxtəlif məktəblərin mövcudluğunu qeyd edərək yaxşı məktəblərin də az olmadığını söyləyib, belə məktəblərdən ibrət götürməyi məsləhət görüb. Həmçinin peşəsini yaxşı bilən müəllimlərin də yetərincə olduğunu deyən professor belə müəllimlərdən faydalanmağı, onların əməyini qiymətləndirməyi tövsiyə edib. O qeyd edib ki, ən azı ildə bir dəfə valideyn və şagirdlərin iştirakı ilə fərqlənmiş müəllimin mükafatlandırılması, məktəbdə təhsil prosesinə ictimaiyyətin cəlb olunması çox vacibdir. Bütün bunlar yaxşı məktəb modelini yaratmağa kömək edər.

### Sinqapur təcrübəsi

Həmmüəllifi olduğu “Sinqapur təhsilindən 15 məktub” (Fifteen Letters on Education in Singapore) kitabı haqqında bəhs edən Fernando Reimers həmin kitabı Massaçusets Texnologiya İnstitutunun 15 müəlliminin kollektivliyi ilə 2015-ci ildə Sinqapura etdikləri səfər sonrası rəy və təəssüratlar əsnasında ərsəyə gətirdiklərini diqqətə çatdırıb. Sinqapurun həm təhsil, həm dayanıqlı inkişaf mərhələsində sayılıb seçilən dövlət olduğunu söyləyən yazıçı bildirib ki, Sinqapurun müstəqillik əldə etməsindən 60 ildən az müddət keçməsinə baxmayaraq onlar bu illər ərzində böyük bir yol qət ediblər. Təbii resurslardan kəsad, hətta içməli suyu belə olmayan, əhalisinin böyük əksəriyyəti savadsız olan bir ölkədən inkişaf etmiş, mükəmməl təhsilə sahib bir dövlətə çevriliblər. Professor vurğulayıb ki, bu nailiyyətlərə çatmaq uğrunda onlar 3 şərti qəbul ediblər: 1-ci şərt ondan ibarət idi ki, mütləq olaraq qanunun aliliyi prinsipini qəbul edəcəklər, hamı qanun qarşısında bərabər olacaq, sosial ədalət tətbiq olunacaq. 2-ci olaraq bütün vətəndaşlar üçün bu quruculuq prosesində iştirakçılıq təmin edilib, 3-cü -iştirak hüququndan faydalanmaq üçün hər kəs səmərəli təhsil sistemi ilə təmin edilib. Yəni, bu 3 təməl əsasında mükəmməl bir dövlət qurulub və hazırda Sinqapur adambaşına düşən gəlirə görə dünyada ən öndə gələn ölkələrdən birinə çevrilib. Harvardlı qonaq Sinqapurun fərqli cəhətlərindən birinin də təhsil sistemini qurarkən əvvəlki təhsil sistemindən imtina etmədiklərini, mövcud olan təhsil təcrübəsindən istifadə etmələri olduğunu göstərib. O deyib: “Sinqapurun uğurlu təhsil sisteminin əsas səbəblərindən birincisi çox iddialı kurikulumun (tələbələrin şüurunun, sosial bacarıqlarının inkişaf etdirilməsi) tətbiq edilməsi, ikincisi- müəllimlərin təkmilləşdirilməsi, inkişaf etdirilməsi üçün imkanların yaradılmasıdır. Bu məqsədlə hətta ölkədə müəllimləri hazırlayan və ixtisasartırması ilə məşğul olan Milli Təhsil İnstitutu fəaliyyət göstərir”.

Eyni zamanda, dünya şöhrətli professor 2022-ci ilin martından COVID-19 pandemiyasının təsirlərini qlobal miqyasda araşdırmasından bəhs edib. Alim pandemiyanın təhsil sahəsində törətdiyi sosial məsafələrin artması, əyani təhsil alma imkanlarının məhdudlaşdırılması, texnoloji vasitələrdən əvəz etmək cəhdləri və bu sahədə bəzi uğursuzluqlar, cəmiyyətin imtiyazsız təbəqəsinin üzləşdiyi çətinliklər kimi mənfi fəsadlardan danışaraq eyni zamanda müsbət tərəflərinin də olduğunu bildirib. Belə ki, pandemiya zamanı cəmiyyətdə müxtəlif innovasiyalar tətbiq edilib, böhranın aradan qaldırılması istiqamətində təhsilin əsas alət olduğu hər kəs üçün aydın olub, yeni-yeni üsullar tətbiq olunub, yeni innovativ kurikulumlar yazılıb, pandemiyadan sonra şagird və tələbələrin emosional rifahına önəm verilməyə başlanılıb.

### 8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi “Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar?” sualının cavabında professor aşağıdakı çağırışları qeyd edib:

“1. Aktuallıq - tədris olunan məsələlərin qlobal məsələlərlə uzlaşdırılması, proqramda dünyada aktual olan məsələlərin öz əksini tapması;
2. Müəllimlərin lazımi vasitələrlə, əyani vəsaitlərlə təmin olunması;
3. Cəmiyyətdə mövcud olan sosial bərabərsizliyin, təcridedilmənin aradan qaldırılması;
4. Məktəblərin tək şagirdlərin inkişaf etməsi üçün deyil, həmçinin də müəllimlərin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş təhsil müəssisələrinə çevrilməsi;
5. Məktəbdə sistemli yanaşmanın tətbiqi;
6. Təhsilə cəmiyyətin dəstəyi;
7. Maliyyələşdirmə, maliyyə imkanları, hər kəsin hüquqlarını tanıyan məzunların yetişdirilməsi;
8. Müəllimlərin və şagirdlərin qlobal ünsiyyətinin yaradılması, onlar arasında təhsil dəst-xəttinə uyğun olaraq əlaqələrin qurulması, həmrəylik nümayiş etdirilməsi”.

Çıxışının yekunu olaraq Fernando Reimers ona yaradılan fürsətə görə təşəkkürünü bildirib və uşaqlar üçün yazdığı “Filomenanın dostları” kitabında yer alan “məhz birlikdə sülh içində yaşaya biləcəyimiz, zövq ala biləcəyimiz bir dünyanı kollektiv şəkildə yaşamağa” səsləyən çağırış edib.

Görüşün sonunda “T-Network”un rəhbəri Cəfər Mənsimi dəyərli fikirlərini paylaşdığı, qlobal vətəndaşlığa verdiyi töhfəyə görə F.Reimersə dərin minnətdarlığını bildirib.

Lamiyə ƏLİMƏRDANOVA